QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 181 (5412) 6 **oktyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Xalqın rifahına hesablanmış müdrik siyasət

*İlham Əliyev: “Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır”*



Səh 2


Məcburi köçkünlər üçün Masazır qəsəbəsində salınan şəhərcikdə tikilən yeni üç binada mənzillərin təqdim edilməsi mərasimi keçirilib



4

Azərbaycanın Birinci vitse-prezidenti Ramanada Qubadlı rayon Xanlıq kənd orta məktəbinin yeni binasında yaradılan şəraitlə tanış olub



3

Avropanın başının üstündə separatizm kabusu dalğalanır



8

Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib



6

Bakıda MDB üzv dövlətlərinin təhlükəsizlik, xüsusi xidmət və hüquq mühafizə orqanlarının VII Regional ekspert müşavirəsi keçirilir



9

“YARAT” da yeni filmin təqdimatı olacaq



9

10

Oktyabrın 5-dək ölkə üzrə 57 min 361 ton pambıq təhvil verilib



12

Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib



16

“Azərbaycan WBC-nin 166-cı üzv ölkəsi olacaq”



# Xalqın rifahına hesablanmış müdrik siyasət

## *İlham Əliyev: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır"*



***Vətəndaşların həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi hər bir dövlətin sosial siyasətinin əsas məqsədlərindəndir. Bu, əhalinin məşğulluğunun, tibbi xidmətlərin yüksək səviyyəsinin, pensiyaçıların, çoxuşaqlı ailələrin və əlillərin hüquqlarının müdafiəsinin təminatı ilə həyata keçirilir. Bu gün tam əminliklə demək olar ki, Azərbaycanda əhalinin sosial müdafiəsi lazımi səviyyədə təmin olunur. Dövlətimizin başçısı dəfələrlə bəyan edib ki, dövlətin yürütdüyü siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Son illər ölkəmizdə görülən işlərin əsas məqsədi Azərbaycan vətəndaşının rifah halını yüksəltmək, işsizliyi və yoxsulluğu aradan qaldırmaqdır.***

Ümumiyyətlə, ölkəmizdə bütün sahələrdə, o cümlədən, sosial sahədə uğurlu dövlət siyasəti həyata keçirilir. Bu işin məntiqi nəticəsi olaraq reallaşdırılan siyasət və aparılan islahatlar öz müsbət nəticələrini verir. Dövlətin sosial siyasəti nəticəsində əhalinin rifahı, güzəranı xeyli yüksəlib və yoxsulluğun ümumi səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Sosial siyasət dövlət tərəfindən müvafiq qanun və dövlət proqramları ilə tənzimlənir və icra olunur.

Azərbaycan Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyət göstərdiyi müddətdə sosial-iqtisadi sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirməklə ölkəmizin daha da qüdrətlənməsinin və dinamik inkişafının əsas leytmotivini təşkil etməkdədir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması, daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Bütün bunlar Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan dövlət başçısı İlham Əliyevin hər bir addımda vətəndaşların mənafeyini əsas götürdüyünə dəlalət edir.

### Vətəndaşların problemlərini şəxsən dinləyən dövlət başçısı

Bu günlərdə Prezident İlham Əliyevin Neftçala və Salyan rayonlarına səfəri zamanı vətəndaşlarla keçirilən görüşlərdə də onların problemlərini şəxsən dinləməsi deyilənlərin məntiqi nəticəsidir. Səfər zamanı Prezident İlham Əliyevin Sədrliyi ilə rayonlarda keçirilən respublika müşavirələrində kənd təsərrüfatının müxtəlif sahələrinin inkişaf etdirilməsi üçün də çox yaxşı ənənə və böyük potensialın olduğunu diqqətə çatdırmaqla yanaşı, bu sahədə xarici bazarlardan asılılığın azaldılması və aradan götürülməsinin, lazım olan bütün məhsulların Azərbaycanda yetişdirilməsinin vacibliyini önə çəkib.

Deyilənlərin məntiqi nəticəsi son on dörd ildə görülən işlərin uğurlarıdır. Əgər son on dörd ildə əldə olunan uğurlara diqqət yetirsək, görərik ki, Azərbaycanda heç vaxt, qısa zaman ərzində, bu qədər iş görülməyib. Xüsusilə infrastruktur layihələrinin reallaşdırılması, ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər hər zaman dövlət başçısının diqqət mərkəzində olub və həmin siyasətin sayəsində ölkəmizdə son 6 ay ərzində iqtisadiyyatda 1,7 faiz artım qeydə alınıb, qeyri-neft sektorunda 4,4 faiz, kənd təsərrüfatı sahəsində 2 faiz artım mövcuddur. Ən mühüm məsələlərdən biri, heç şübhəsiz ki, ixrac potensialımızın genişləndirilməsi və idxaldan asılılığın azaldılması ilə bağlıdır. Məhz Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət sayəsində ölkəmizin ixracatında son 6 ay ərzində 36 faizlik artım qeydə alınıb və xüsusilə qeyri-neft ixracatında 27 faiz artım var, idxaldan asılılıq isə 15 faiz azalıb.

Belə ki, dövlət dəstəyi tədbirləri, o cümlədən, 19 rayonda 40 quşçuluq təsərrüfatına, 13 rayonda 20 heyvandarlıq və 8 rayonda südçülük komplekslərinə, 6 rayonda 7 ət kəsimi və emalı müəssisəsinə 240 milyon manat güzəştli kreditin verilməsi istehsalın artmasına, ət və ət məhsullarının idxalının əhəmiyyətli dərəcədə azalmasına səbəb olub. Bundan əlavə, 20 rayonda 33 intensiv bağçılıq və üzümçülük təsərrüfatına, 9 rayonda 37 istixana kompleksinə və 11 rayonda 16 meyvə-tərəvəz emalı müəssisəsinə 171 milyon manat güzəştli kreditin ayrılması nəticəsində, bu məhsullara daxili tələbat ödənilib və ixrac imkanı artıb.

### Sosial rifahın güclənməsinə hesablanan mühüm qərarlar

Onu da vurğulamaq lazımdır ki, Cənab İlham Əliyev Prezident olduğu 14 il ərzində xalqın sosial rifahının güclənməsinə hesablanan mühüm fərman və sərəncamlar imzalayıb. Elə ötən il Azərbaycan Respublikası Prezidentinin "Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyəti ilə bağlı bəzi məsələlər haqqında" imzaladığı Fərmanına əsasən, ölkəmizdə "güzəştli mənzil" sisteminin yaradılması bir daha dövlət başçısının xalqına olan diqqət və qayğısının bariz nümunəsidir.

Ölkə Prezidenti, həmçinin, bütün çıxışlarında öz işinə laqeyd yanaşan, vətəndaşların şikayətlərinə etinasız baxan və vəzifə borcunu layiqincə yerinə yetirə bilməyən məmurlara daim xəbərdarlıq edir və barələrində ciddi ölçü götürür. Bu, Prezident İlham Əliyevin dövlət idarəçiliyi sahəsində nə qədər böyük səriştəyə, təşəbbüskarlığa, insanlara qarşı münasibətdə diqqətə və həssaslığa malik lider olduğunu parlaq şəkildə əks etdirir.

"Hər bir məmur xalqının xidmətçisi olmalıdır"-deyən Prezident İlham Əliyev hakimiyyəti xalqa layiqli xidmət məramı kimi dəyərləndirir.

Ölkə Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır və heç bir sosial proqram heç vaxt ixtisar olunmayacaq, əksinə, biz yeni təşəbbüslər haqqında fikirləşirik."

Bir sözlə, bu gün hər bir azərbaycanlı Prezident İlham Əliyevin yürütdüyü sosial-iqtisadi siyasətin müsbət təsirlərini hiss edir və ölkə başçısının Azərbaycanın sosial dövlət statusunun möhkəmləndirilməsi işinə öz töhfəsini verməyə çalışır. Vətəndaş-hakimiyyət münasibətlərinin yüksək səviyyəsi də ölkədə aparılan sosial siyasətin bundan sonra da uğurla davam edəcəyinə böyük inam yaradır. Həyata keçirilmiş sosial-iqtisadi siyasət nəticəsində əldə edilmiş uğurlar, xalqın ildən-ilə yüksələn rifahı Azərbaycan Prezidenti İlham Əliyev siyasətinin mükəmməlliyini bir daha təsdiqləyir.

**RƏFİQƏ KAMALQIZI**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında avtomobil nəqliyyatı ilə tranzit daşımalar haqqında ilkin elektron məlumat mübadiləsi sisteminin yaradılmasına dair Sazişin təsdiq edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Xəzər Zafir oğlu İbrahimin Azərbaycan Respublikasının Türkiyə Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev İsmayıllı rayonunun Lahıc qəsəbəsində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev İsmayıllı rayonunun Lahıc qəsəbəsinin qazlaşdırılması ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Birinci vitse-prezident Mehriban Əliyeva Bakının Ramana qəsəbəsində məcburi köçkün ailələri üçün inşa edilən yeni bina ilə tanış olub

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva oktyabrın 5-də Bakının Sabunçu rayonunun Ramana qəsəbəsində məcburi köçkün ailələri üçün inşa edilən yeni bina ilə tanış olub. AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov bina barədə Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi.**







Bildirildi ki, bu bina "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsi çərçivəsində inşa edilib. Tikinti işlərinə bu ilin mart ayında başlanılıb. Beşmərtəbəli binada beş birotaqlı, iyirmi ikiotaqlı, iyirmi üçotaqlı və beş dördotaqlı mənzil var.

Prezident İlham Əliyevin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğı ilə əhatə edildiyini göstərir. Qaçqınların və məcburi köçkünlərin müvəqqəti yaşayış yerlərindən və çadırlardan müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi dövlətin bu insanlara göstərdiyi diqqət və qayğının təzahürüdür.

Qaçqınların və məcburi köçkünlərin maddi rifahının yaxşılaşdırılması üçün dövlət proqramları qəbul edilib, sosial müavinətlərin artırılması istiqamətində önəmli tədbirlər görülüb. Bu istiqamətdə atılan mühüm addımlardan biri də martın 9-da Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr edilən müşavirənin keçirilməsi olub. Mehriban xanım Əliyeva müşavirədə çıxışı zamanı vurğulayıb ki, görülən işlərlə yanaşı, hələ də ağır vəziyyətdə, qəzalı və yararsız binalarda kifayət qədər çox məcburi köçkün ailəsi yaşayır və bu istiqamətdə işlərin sürətləndirilməsi üçün əlavə və təxirəsalınmaz addımlar atılmalıdır. Birinci vitse-prezident bildirib ki, Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün köçkün ailələri tezliklə yeni mənzillərə köçürülməlidir. Müşavirədən sonra bu istiqamətdə atılan addımlar sürətləndirildi. May ayında Birinci vitse-prezident Mehriban Əliyeva Qaradağ rayonunda məcburi köçkünlər üçün yeni müasir yaşayış kompleksinin təməlqoyma, iyun ayında isə "Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması" layihəsinin icrası çərçivəsində Abşeron rayonunun Masazır qəsəbəsində yeni mənzillərin verilməsi mərasimində iştirak edib.

Ramana qəsəbəsindəki binada yaradılan şəraitdən məmnunluğunu ifadə edən Mehriban xanım Əliyevaya məlumat verildi ki, buraya Xətai rayonunda və Sarıqaya yaşayış massivində qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış 50 məcburi köçkün ailəsi köçürüləcək.



# Azərbaycanın Birinci vitse-prezidenti Ramanada Qubadlı rayon Xanlıq kənd orta məktəbinin yeni binasında yaradılan şəraitlə tanış olub



**Oktyabrın 5-də - Beynəlxalq Müəllimlər Günündə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakının Sabunçu rayonunun Ramana qəsəbəsində Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbi üçün istifadəyə verilən yeni binada yaradılan şəraitlə tanış olub. AZƏRTAC xəbər verir ki, Qubadlı Rayon İcra Hakimiyyətinin başçısı Malik İsaqov məktəbin binasında yaradılan şərait barədə Mehriban xanım Əliyevaya məlumat verdi.**



Qeyd edildi ki, bu təhsil müəssisəsi 2017-2018-ci tədris ilində istifadəyə verilib. Məktəbin binasının inşasına bu il başlanılıb və dörd ay ərzində tikilib istifadəyə verilib. 196 şagird yerlik məktəb Qubadlıdan olan məcburi köçkün ailələrinin və ətraf ərazidə yaşayan sakinlərin övladları üçün nəzərdə tutulub.

Mehriban xanım Əliyeva məktəbdə təhsil alan birinci sinif şagirdləri ilə söhbət etdi, onların dərsləri ilə maraqlandı. Uşaqlar məktəbdə tədris üçün bütün şəraitin mövcud olduğunu söylədilər və yaxşı oxuyacaqlarına söz verdilər. Ən müasir avadanlıqla təchiz edilən binada tədrisin yüksək keyfiyyətlə təşkili üçün hər cür şərait yaradılıb. Məktəbdə şagirdlər birinci sinifdən doqquzuncu sinfə qədər təhsil alırlar. Kabinetlərin və laboratoriyaların hamısı lazımi avadanlıq və dərs ləvazimatları ilə təmin edilib.

İnformatika otağında şagirdlərin kompüter bacarıqları ilə maraqlanan Azərbaycanın Birinci vitse-prezidenti onlara uğurlar arzuladı. Birinci vitse-prezident Mehriban Əliyeva yüksək balla ali məktəblərə daxil olan Qubadlı rayonunun şagirdlərinin fotolarından ibarət stendə baxdı.

Təhsil müəssisəsində son 10 ildə bu rayondan olan məcburi köçkünlər üçün tikilmiş yeni məktəb binalarını əks etdirən fotostend də qoyulub. Azərbaycanın Birinci vitse-prezidenti dövlətimizin başçısı İlham Əliyevin Qubadlı rayonundan olan idmançılarla görüşünə həsr edilən fotostendlə də tanış oldu. İdman zalında Mehriban Əliyeva Qubadlıdan olan idmançıların məşqini izlədi.

Məktəbin kollektivi ilə görüşən Mehriban Əliyeva tədris ocağının yeni binasının istifadəyə verilməsi və Beynəlxalq Müəllimlər Günü münasibətilə təbriklərini çatdırdı. "Məktəb illəri hər bir insanın həyatında silinməz iz qoyur. Sizin peşəniz olduqca vacibdir", - deyən Birinci vitse-prezident təhsil müəssisəsinin kollektivinə fəaliyyətlərində uğurlar arzuladı. Sonda xatirə şəkli çəkdirildi.

# Məcburi köçkünlər üçün Masazır qəsəbəsində salınan şəhərcikdə tikilən yeni üç binada mənzillərin təqdim edilməsi mərasimi keçirilib

## *Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak edib*

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva oktyabrın 5-də Abşeron rayonunun Masazır qəsəbəsində məcburi köçkünlər üçün salınan şəhərcikdə yeni inşa olunan üç binada mənzillərin təqdim edilməsi mərasimində iştirak edib.***

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov görülən işlər barədə Birinci vitse-prezidentə məlumat verdi.

Bildirildi ki, bu binalar “Qəzalı vəziyyətdə olan binalarda məskunlaşmış məcburi köçkün ailələrinin yeni mənzillərlə təmin olunması” layihəsi çərçivəsində tikilib. Müasir səviyyədə təmir edilən mənzillərin hamısı zəruri avadanlıqla, həmçinin qaz, su və elektrik enerjisi ilə təmin olunub. Binaların həyətində geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıb.

Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə çıxış etdi.




**“İnsan hüquqları təşkilatları 1 milyondan çox qaçqın və məcburi köçkünün haqlarının pozulması ilə bağlı məsələnin həllində səylər göstərmir”**

Mehriban Əliyeva bildirdi ki, 20 ildən artıq davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ən ağır problemi, xalqımızın ən böyük ağrısıdır. Münaqişə nəticəsində soydaşlarımızın qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olduğunu deyən Azərbaycanın Birinci vitse-prezidenti vurğuladı ki, dövlətimizin başçısı İlham Əliyev istər ikitərəfli görüşlərdə, istərsə də beynəlxalq təşkilatlarda etdiyi çıxışlarda bu münaqişə barədə məlumat verir. Bu məsələyə dünyada olan ikili standartlar barədə danışan Birinci vitse-prezident qeyd etdi ki, insan hüquqları təşkilatları 1 milyondan çox qaçqın və məcburi köçkünün haqlarının pozulması ilə bağlı məsələnin həllində səylər göstərmir.

Mehriban xanım Əliyeva dövlətimizin bu illər ərzində qaçqın və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı mühüm işlər gördüyünü, onların yeni mənzillərə köçürüldüyünü, iş yerləri ilə təmin olunduqlarını qeyd etdi. Vurğuladı ki, indiki mərhələdə uyğunlaşdırılmış binalarda, ilk növbədə isə qəzalı vəziyyətdə olan evlərdə yaşayan bu cür insanların mənzil məsələlərinin həlli diqqət mərkəzindədir və gələcəkdə də bu istiqamətdə addımlar atılacaq.

“Azərbaycan qüdrətli və müstəqil dövlətdir. İnkişaf təkcə Bakıda deyil, ölkəmizin hər yerində təmin olunub”, - deyən Birinci vitse-prezident son illərdə ölkəmizdə turizmin inkişafı ilə bağlı görülən işlərdən, regionlarda həyata keçirilən sosial layihələrdən, idman sahəsində əldə edilən uğurlardan, birinci Avropa Oyunlarının və İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə keçirilməsindən də danışdı. Bildirdi ki, Prezident İlham Əliyev üçün Azərbaycanın və xalqımızın maraqları hər şeydən üstündür.

*Ardı Səh. 5*









# Məcburi köçkünlər üçün Masazır qəsəbəsində salınan şəhərcikdə tikilən yeni üç binada mənzillərin təqdim edilməsi mərasimi keçirilib

*Birinci vitse-prezident Mehriban Əliyeva mərasimdə iştirak edib*

Əvvəli Səh. 4

Mehriban Əliyeva Azərbaycanın bu gün inkişaf və tərəqqi yolu ilə getdiyini vurğuladı.

Laçın rayonundan olan məcburi köçkünlər Ağa Əhmədov və Kəmalə Quliyeva, Ağdam rayonundan olan məcburi köçkün Aysel Bəşirova onlara göstərilən dövlət qayğısını qeyd etdilər, Birinci vitse-prezident Mehriban Əliyevaya bu cür layihələrin həyata keçirilməsinə görə minnətdarlıqlarını bildirdilər.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti binalardakı mənzillərdə yaradılan şəraitlə tanış oldu.

Bildirildi ki, burada ikisi 80, biri isə 50 mənzilli olmaqla 3 bina inşa edilib. Bu cür layihələrin icrası bir daha sübut edir ki, dövlətimiz məcburi köçkünlərin mənzillərlə təmin olunmasına, onların sosial məsələlərinin həllinə daim böyük diqqətlə yanaşır. Belə binaların inşası həm də bu qəbildən olan vətəndaşlarımızın sosial şəraitinin yaxşılaşdırılması istiqamətində icra edilən layihələrin davamlı olduğunu nümayiş etdirir.



**“Azərbaycan qüdrətli və müstəqil dövlətdir. İnkişaf təkcə Bakıda deyil, ölkəmizin hər yerində təmin olunub.”**

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Laçın rayonundan olan məcburi köçkün İnnaf Nəcəfovanın mənzilində oldu.

İnnaf Nəcəfova onlar üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlığını bildirdi.

Mehriban Əliyeva bu kateqoriyadan olan insanların mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində bundan sonra da tədbirlərin davam etdiriləcəyini dedi, dövlətimizin başçısının müdrik siyasəti ilə torpaqlarımızın tezliklə işğaldan azad ediləcəyinə ümidvar olduğunu vurğuladı.


















# Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib

*YAP Lənkəran rayon təşkilatının X konfransı keçirildi*

Dünən Lənkəran şəhərinin Heydər Əliyev Mərkəzində Yeni Azərbaycan Partiyası Lənkəran rayon təşkilatının X konfransı keçirilib. Konfransdan öncə Lənkəran rayon icra hakimiyyətinin başçısı Taleh Qaraşov, Azərbaycan Respublikası Milli Məclisi sədrinin I müavini Ziyafət Əsgərov, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli, "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev, YAP Lənkəran rayon təşkilatı idarə heyətinin üzvləri və qonaqlar Heydər Əliyev Xatirə Parkında Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül-çiçək dəstələri düzüblər. Konfrans öz işini Heydər Əliyev Mərkəzində davam etdirib. Yeni Azərbaycan Partiyasının banisi, Ümummilli Lider Heydər Əliyevin və həyatdan köçmüş partiya üzvlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayan konfransın sədri Lənkəran rayon İH başçısı, YAP Lənkəran rayon təşkilatı idarə heyətinin üzvü Taleh Qaraşov konfransı açaraq bildirib ki, ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan YAP-ın yaradılmasının 25 ili tamam olur: "İctimai-siyasi proseslərin kifayət qədər mürəkkəb və keşməkeşli axarda cərəyan etdiyi bir vaxtda Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə yaranan YAP qısa müddətdə ölkənin gələcək taleyini müəyyənləşdirən və əsas siyasi qüvvəyə çevrilən təşkilat olub. Azərbaycan Prezidenti İlham Əliyevin Sədri olduğu və bu gün 700 mindən çox insanı sıralarında birləşdirən YAP müstəqilliyimizin, demokratik-hüquqi-dünyəvi dövlətimizin möhkəmləndirilməsi və dayanıqlı sosial-iqtisadi inkişafın təmin olunması proseslərində daim yaxından iştirak edir". Sonra YAP Lənkəran rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Möhübbət Babayevin şəhər təşkilatının IX konfransından, ötən müddət ərzində, görülmüş işlər barədə məruzəsi dinlənilib.

Məruzə ətrafında Milli Məclis sədrinin I müavini Ziyafət Əsgərov, Milli Məclisin Əmək və Sosial Siyasət Komitəsinin sədri Hadi Rəcəbli, "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev çıxış edərək, fikir və rəylərini bildirib, YAP-ın müasir Azərbaycanın ictimai-siyasi həyatındakı müstəsna rolundan, respublikamızın bütün sahələrində inkişaf dinamikasına nail olunmasında tarixi xidmətlərindən və xalqın bu siyasi təşkilata yüksək etimadından danışıblar. Konfransda təşkilati məsələyə baxılıb, Möhübbət Hacıbaba oğlu Babayev YAP Lənkəran rayon təşkilatının sədri, Elnur Həsənəli oğlu Hüseynov sədrin müavini və İdarə Heyətinin üzvü seçilib.

**Rövşən NURƏDDİNOĞLU**

# Xəzər rayonunda Yeni Azərbaycan Partiyasının 25-ci ildönümü coşqu ilə qeyd olunub

*Beynəlxalq Müəllimlər Günü münasibəti ilə Xəzər rayonunun ümumtəhsil məktəblərinin müəllimləri arasında stolüstü tennis üzrə rayon turniri keçirilib*







Dünən Yeni Azərbaycan Partiyası Xəzər rayon təşkilatı partiyanın yaranmasının 25-ci ildönümünə həsr olunmuş silsilə tədbirlərə uyğun olaraq, 5 Oktyabr - Beynəlxalq Müəllimlər Günü münasibəti ilə Xəzər rayonunun ümumtəhsil məktəblərinin müəllimləri arasında stolüstü tennis üzrə rayon turniri keçirib. Yarış kişi və qadın müəllimlər arasında baş tutub və ümumilikdə, turnirdə 52 müəllim iştirak edib.

Yarışdan öncə YAP Xəzər rayon təşkilatının sədri Namiq Əhmədov çıxış edərək bildirib ki, Yeni Azərbaycan Partiyasının 25 illik tarixi hər bir azərbaycanlının qürur və şərəf mənbəyidir: "Belə ki, ümumxalq partiyasına çevrilmiş YAP Azərbaycanın ictimai-siyasi həyatındakı fəaliyyəti ilə müstəqil Azərbaycanın güclənməsinə, daha da qüdrətli olmasına, eləcə də, xalqın rifahının daha da yaxşılaşmasına öz böyük töhfələrini verib".

Tədbirdə çıxış edən millət vəkili Rauf Əliyev isə qeyd edib ki, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Yeni Azərbaycan Partiyası, siyasi uğurları ilə yanaşı, digər sahələrin inkişaf və tərəqqisində əhəmiyyətli rol oynayıb. Belə ki, partiyanın Sədri, Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Cənab İlham Əliyev hər bir azərbaycanlının Prezidenti olaraq, verdiyi vədlərinə, bütünlüklə əməl edib. Bu baxımdan, xalq Ona yüksək etimadını göstərir və bundan sonra da göstərməkdə davam edəcək.

Çıxış edən Xəzər RİH-in müavini Arif Balayev də bildirib ki, bu gün Xəzər rayonunda gedən inkişaf və tərəqqi, bütövlükdə Azərbaycanda aparılan nəhəng işlərin tərkib hissəsidir və hər bir rayon və qəsəbə sakini bu inkişafdan yalnız qürur duyur. Belə ki, əldə edilən nailiyyətlərin hər birində Yeni Azərbaycan Partiyasının töhfələri var.

Qeyd edək ki, 2017-ci il tarixində Xəzər rayon Şağan Olimpiya İdman Kompleksində müəllimlər arasında keçirilmiş stolüstü tennis turnirinin final yarışında I-II və III yer tutan qaliblərə diplom və mükafatlar təqdim olunub.

**R.RƏSULOV**

# Daşınmaz əmlaka görə icarə haqqı 30 min manat həddində nağd qaydada ödənilə bilər

ƏDV qeydiyyatında olan müəssisə digər vergiödəyicisi olan fiziki şəxslə icarə müqaviləsi bağlayaraq daşınmaz əmlak götürdüyü halda, müəssisə icarə haqqını nağd qaydada ödəyə bilərmi? Vergilər Nazirliyinin Media və Kommunikasiya Mərkəzindən AZƏRTAC-ın sualına cavab olaraq bildirilib ki, Vergi Məcəlləsinin 16.1.11-8-ci maddəsinə əsasən, qanunla nağd qaydada həyata keçirilməsi məhdudlaşdırılan əməliyyatların yalnız nağdsız qaydada həyata keçirilməsini təmin etmək vergiödəyicisinin vəzifəsinə aid edilib. Qeyd olunub ki, ƏDV məqsədləri üçün qeydiyyatda olan müəssisə tərəfindən digər vergiödəyicisindən icarəyə götürülmüş daşınmaz əmlaka görə ödənilən icarə haqqı 30 min manat hədd daxilində nağd qaydada ödənilə bilər.

# MuzTV Azərbaycan peyk yayımına başlayır

Ölkəmizdə ilk musiqili internet televiziyası olan MuzTV Azərbaycan peyk yayımına başlayır. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı telekanalın mətbuat xidməti yayıb. Televiziya ilə "Azərkosmos" arasında əldə olunmuş razılığa əsasən, kanal oktyabrın 6-dan etibarən "Azerspace-1" peyki vasitəsilə 13975 V/11174,4 H tezliyi ilə yayımlanacaq.

Qeyd edək ki, MuzTV Azərbaycan 2012-ci il mayın 11-dən yayıma başlayıb və musiqi mədəniyyətinin təbliği istiqamətində ixtisaslaşıb.

# Sentyabrda Gürcüstana 151 min Azərbaycan vətəndaşı səfər edib



Sentyabrda Gürcüstana 151 min Azərbaycan vətəndaşı səfər edib. Bu, ötən illə müqayisədə 15,6 faiz çoxdur. AZƏRTAC xəbər verir ki, cari ilin yanvarından sentyabradək Gürcüstana 5,8 milyon insan səfər edib ki, bu da ötən ilin analoji göstəriciləri ilə müqayisədə 19,2 faiz çoxdur. Səfər edənlərin təxminən 3 milyonu turist olub. Gürcüstanı təkcə sentyabrda 763 mindən çox insan ziyarət edib. Onların da 380 mindən çoxunu turistlər təşkil edib.

Turist axını ilə paralel olaraq Gürcüstanın beynəlxalq turizmdən gəlirləri də artır. Gürcüstan hökumətinin məlumatına görə, səkkiz ay ərzində ölkənin xəzinəsinə təxminən 2 milyon ABŞ dolları daxil olub ki, bu da ötən ilin analoji göstəricisi ilə müqayisədə 29,1 faiz çoxdur.

# Milli Olimpiya Komitəsi beynəlxalq miqyasda nüfuz sahibidir

*<u>İlham Əliyev:</u> "Mən Milli Olimpiya Komitəsinin Prezidenti və ölkə Prezidenti kimi çox istəyirəm ki, Azərbaycanda idmanla məşğulolma prosesi kütləvi xarakter alsın"*

***Azərbaycanda idman hərəkatı Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra inkişaf etməyə başladı. Bununla da demək olar ki, Azərbaycanın dünyada idman ölkəsi kimi tanınmasının əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyuldu. Müasir dövrdə bu siyasəti uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin davamlı və məqsədyönlü fəaliyyətinin nəticəsidir ki, Azərbaycan dünyada aparıcı idman ölkələrindən biri kimi tanınır. Azərbaycanda keçirilən Dünya və Avropa çempionatları bir daha sübut edir ki, həqiqətən də, Azərbaycanda idman uğurla və sürətlə inkişaf edir. Son illərdə Azərbaycanda 300-ə yaxın beynəlxalq səviyyəli idman tədbiri keçirilib.***

Bu tədbirlərin, o cümlədən, bir çox idman növləri üzrə dünya və Avropa çempionatlarının Bakı şəhərində təşkilinin ənənəvi hal alması, ölkəmizdə yüksək səviyyədə yarışların keçirilməsi Olimpiya ailəsində böyük inam yaradıb. 2016-cı ildə XXXI və 2020-ci ildə XXXII Yay Olimpiya Oyunlarının, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üçün Bakının namizədliyinin irəli sürülməsi, FİDE-nin qərarına əsasən, ölkəmizin Dünya Kuboku-2015 və Şahmat Olimpiadasının 2016-cı ildə Bakıda keçirilməsi hüququnu əldə etməsi dünya idman və Olimpiya aləminin Azərbaycana olan marağını daha da artırıb. Bu gün Azərbaycan Olimpiya hərəkatının fəal üzvüdür. Azərbaycan Olimpiya ölkəsinə çevrilib. Azərbaycan Beynəlxalq və Avropa Olimpiya komitələrinin fəal üzvüdür. Azərbaycan artıq idman dövlətidir.




## AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİ BAŞQA OLİMPİYA KOMİTƏLƏRİNƏ ÖRNƏKDİR

Azərbaycanda Olimpiya hərəkatının inkişafı Azərbaycan Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Belə ki, 25 il bundan əvvəl - 1992-ci ildə Milli Olimpiya Komitəsi fəaliyyət göstərməyə başladı. 1997-ci ildən Milli Olimpiya Komitəsinə Cənab İlham Əliyev Sədr seçiləndən sonra Azərbaycanda Olimpiya hərəkatı vüsət almağa başladı. Bu illər ərzində Milli Olimpiya Komitəsinin təşkilati və quruculuq işləri bir an belə səngimədi. Azərbaycanın hər bir yerində yeni və müasir idman komplekslərinin tikintisinə başlanıldı. Azərbaycan Milli Olimpiya Komitəsi başqa Olimpiya komitələri üçün örnək oldu. 1998-ci ildə respublikamız ilk dəfə Qış Olimpiya Oyunlarına qatıldı. Yaponiyanın Naqano şəhərində keçirilən XVIII Qış Olimpiya Oyunlarında respublikamız 5 nəfər idmançı ilə dörd yarışda təmsil olundu. 2000-ci ildə Sidney Olimpiyadasında Azərbaycan idmançıları 2 qızıl, 1 bürünc medal qazandı. Azərbaycan komanda hesabına 199 ölkə arasında 34-cü, Avropa ölkələri arasında isə 23-cü oldu. Bu ölkənin Olimpiya hərəkatı tarixində ən böyük uğuru idi. 2002-ci ildə Azərbaycan ikinci dəfə Qış Olimpiya Oyunlarının iştirakçısı oldu. ABŞ-ın Soit Leyk siti şəhərində keçirilən bu oyunlarda idmançılarımız 3 yarışda iştirak etdilər. 2004-cü ilin avqustunda Afinada keçirilən Olimpiya Oyunlarında idman tariximizdə ilk dəfə olaraq 5 medal qazandı. Çində keçirilən Yeniyetmələrin Olimpiya Oyunlarında Azərbaycanın gənc atletləri beşi qızıl olmaqla 12 medal qazanaraq 200-ə yaxın iştirakçı arasında 10-cu yeri tutmuşdur. Bütün bunlar Cənab İlham Əliyevin təşkilatçılıq fəaliyyətinin uğurlu nəticələridir.

Son illərdə ölkəmizdə 50-dən çox müasir Olimpiya mərkəzləri inşa olunub. İdmanın inkişafına geniş prizmadan yanaşılır və kompleks tədbirlər görülür. Ölkə Prezidenti İlham Əliyevin vurğuladığı kimi: "... yaxın gələcəkdə elə bir şəhər qalmayacaqdır ki, orada müasir, ən yüksək standartlara cavab verən Olimpiya İdman Mərkəzi olmasın. Bu mərkəzlərdə həm peşəkar idmançılar məşq edirlər, eyni zamanda, bölgə gəncləri, uşaqlar, yeniyetmələr idman bölmələrinə gələrək, öz peşəkarlığını artırırlar".

2012-ci il Azərbaycanda "İdman İli" elan edildi. İdmanla məşğul olan, idmanın inkişafına cavabdehlik daşıyan bütün qurumlar vahid siyasət çərçivəsində fəaliyyət göstərirlər.

## BİRİNCİ OLİMPİYA İDMAN KOMPLEKSİ MİLLİ OLİMPİYA KOMİTƏSİ TƏRƏFİNDƏN BAKIDA UCALDILIB

Bu gün MOK beynəlxalq miqyasda böyük nüfuz qazanıb, fəaliyyəti və əldə etdiyi nailiyyətlərlə seçilib. Azərbaycanda keçirilən Avropa və dünya çempionatları da buna nümunədir. Belə ki, hər il müxtəlif beynəlxalq yarışlar, bədii gimnastika, taekvando, güləş, boks, karate və s. bu kimi Olimpiya növlərinə daxil olan idman yarışları, məhz Azərbaycanda keçirilir. Əlbəttə ki, son illərdə Azərbaycanın dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilməsi də buna imkan yaradıb. Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Azərbaycan Prezident İlham Əliyevin vurğuladığı kimi, inkişaf etmiş ölkələrdə, adətən, idman da inkişaf edir: "Azərbaycan inkişafda olan bir dövlət kimi idman sahəsində də böyük nailiyyətlərə çata bilibdir. Dövlət siyasəti idmanın təbliği, idmanla məşğul olmaq üçün şəraitin yaradılması, maarifləndirmə, gənc nəslin yetişdirilməsi kimi mühüm sahələri əhatə edir. Onların arasında yeni idman infrastrukturunun yaradılması xüsusi yer tutur". Onu da qeyd edək ki, Birinci Olimpiya İdman Kompleksi Milli Olimpiya Komitəsi tərəfindən 2000-ci ildə Bakıda ucaldılmışdır.

## "SAĞLAMLIQ MƏSƏLƏLƏRİNİN HƏLLİNDƏ İDMANIN ÇOX BÖYÜK ROLU VARDIR"

Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi də elə ölkəmizə Avropa Olimpiya Komitəsinin inamı idi. Avropa Olimpiya Komitəsinin Baş Məclisində 2015-ci ildə Birinci Avropa Oyunlarının Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilməsi, ilk oyunların Bakıda keçirilməsi böyük nailiyyət idi. Bu cür oyunları ilk dəfə təşkil etmək Azərbaycan üçün şərəfli olduğu qədər də məsuliyyətlidir. Əlbəttə, bu qərarı qəbul edərkən, Avropa Olimpiya Komitəsi beynəlxalq idi. İlk Avropa Oyunlarında 49 ölkədən 6000-dən artıq atlet idmanın 20 növündə mübarizə apardı. Yarışlar Bakıda 21 idman obyektində keçirildi. Təbii ki, bütün bunlarla yanaşı, Azərbaycan 42-ci Ümumdünya Şahmat Olimpiadası, 17 yaşadək futbolçular arasında Avropa çempionatı, Bədii Gimnastika üzrə Dünya Kuboku, "Formula-1" kimi mötəbər yarışlara uğurla ev sahibliyi etdi və özünü dünyada idman ölkəsi olaraq tanıda bildi. IV İslam Həmrəyliyi Oyunlarının uğuru, idmançılarımızın inanılmaz qələbələri bunun daha bir parlaq nümayişi oldu. Azərbaycan 75 qızıl medalla birinci yeri qazandı. İdman arenalarında Azərbaycanın Dövlət Himninin 75 dəfə səslənməsi, təbii ki, böyük qürurdur.

Ölkə Prezidenti İlham Əliyevin hər bir idmançı və məşqçini MOK, Gənclər və İdman Nazirliyi tərəfindən təqaüdlərlə təmin etməsi də ölkəmiz də Olimpiya hərəkatına müsbət təsir edən amillər sırasındadır. MOK Azərbaycanda idmanın və Respublika Olimpiya Hərəkatının inkişafına xüsusi qayğı göstərir. İdman sahəsinə ayrılan diqqət və göstərilən qayğı gənclərin bu sahəyə olan marağını artırıb. Kütləvi olaraq bu sahəyə axın var. Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində vurğulayıb ki, Mən Milli Olimpiya Komitəsinin Prezidenti və ölkə Prezidenti kimi çox istəyirəm ki, Azərbaycanda idmanla məşğulolma prosesi kütləvi xarakter alsın: "Artıq kütləvilik artır, ancaq istənilən səviyyədə deyildir. Hər bir vətəndaş, hər bir gənc mütləq idmanla məşğul olmalıdır. Çünki ilk növbədə, idman sağlamlıq və sağlam həyat tərzi deməkdir. İdmançıların mütləq əksəriyyəti yüksək insani keyfiyyətlərə malikdir. Eyni zamanda, idman mədəniyyətdir və idmanla məşğul olan insan özünü rahat, çox əmin hiss edir. Biz çalışmalıyıq ki, sağlam gənclər yetişsin. Sağlamlıq məsələlərinin həllində idmanın çox böyük rolu vardır".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Avropanın başının üstündə separatizm kabusu dalğalanır






***Son günlər dünya ictimaiyyəti İraqın şimalında və İspaniya Krallığında olmaqla "müstəqillik"lə bağlı iki "referendum"un şahidi olub. Yerli hökumətin təşəbbüsü ilə İraqın şimalında keçirilən referendumu rəsmi Bağdad, Türkiyə, İran, ABŞ, Britaniya, Rusiya, Fransa, Avropa İttifaqı, "qanunsuz, İraq konstitusiyasına zidd addım" hesab edir və tanımır. Eləcə də, İspaniyanın baş naziri Mariano Rahoy İspaniya Krallığında keçirilən "siyasi aksiya"nın nəticələrinin Konstitusiya Məhkəməsində ləğv ediləcəyini bildirir və mərkəzi hakimiyyət bu "referendum"u qanunazidd sayır.***

Şimali İraqdakı kürd muxtariyyətinin keçirdiyi "referendum"a biganə münasibət sərgiləyən Qərb bundan bir həftə sonra İspaniyanın Kataloniya bölgəsindəki "referendum"a eyni münasibəti göstərmədi. Daha doğrusu, rəsmi Madrid ərazi bütövlüyünün pozulması ilə barışmayaraq, sərt addımlar atmağa məcbur idi. Əhalisi 7 milyon yarımdan çox olan, təxminən 200 milyard ABŞ dolları olmaqla, gəlirləri bütün İspaniya ÜDM-nin dörddə birini təşkil edən zəngin regionun, yəni Kataloniyanın ayrılmasına, digər tərəfdən, ərazi bütovlüyünün, sərhədlərinin pozulmasına razı olmayan İspaniya hökumətinin polislə və xüsusi təyinatlılarla aksiyaya müdaxilə etməsi, toqquşmalarda 12 polis əməkdaşının, 900-dən artıq adamın xəsarət alması bu parçalanmaya heç zaman imkan verilməyəcəyindən xəbər verir. ABŞ və Avropa İttifaqı "referendum"un nətcələrinə hələ də münasibət bildirməsə də, bu referendumun ölkə konstitusiyası və Avropa qanunlarına zidd olduğunu bəyan edən Avropa Parlamentinin sədri Antonio Tayanın narahatçılığı, və ümumilikdə, Qərbin təşviş içində olması başa düşüləndir. Tarixi Kataloniya İspaniyadakı muxtar əyalət və Fransadakı Şərqi Pireney Departamentindən ibarətdir. Bundan başqa, kataloniyalılar Fransanın Kataloniya əyalətinə birləşən ərazilərini "Şimali Kataloniya" adlandırırlar və bu aksiya dalğasının, hətta bununla bitəcəyi belə şübhə doğurur.

## İspaniyada Basklar da müstəqil olmaq iddiası ilə çıxış edə bilərlər

İspaniyada yerləşən digər bir muxtar ərazi - basklar da bir çox məsələlərdə İspaniyaya tabe deyillər. Ərazini basklara məxsus Ertzaintza adlı polis təşkilatı qoruyur. Bundan başqa, turizm, maliyyə, vergilərdən əldə olunan gəlirlərin böyük bir qismi İspaniyanın deyil, Bask Muxtariyyətinin büdcəsinə gedir. Basklar euskaldunaklarla birgə İspaniya ilə yanaşı, Fransanın cənub-qərbində yaşayır. İspaniyada 2,8 milyon nəfərədək, Fransada 250 min nəfərədək, ABŞ-da 6,9 min, Meksikada 20 min insan Bask dilində danışır. Eyni dil qrupuna daxil olan insanların bir yerdə toplaşmaq və aksiya təşkil etmək niyyətində olmayacağını da qabaqcadan demək olmaz. Hətta Aralıq dənizinin şimalında yerləşən korsikalılar da "ayrılmaq" istəyənlər sırasındadır.

Göründüyü kimi, Avropada təkcə İspaniya daxilində bir neçə muxtar ərazi var ki, onlar müstəqillik, müstəqil dövlət qurmaq arzusunda, niyyətindədirlər və hətta bunu gizlətmirlər də. Belə məlum tərkibindən çıxmaq istədiklərini bildirmişdilər və bir neçə il əvvəl Belçikada hökumət böhranı bununla əlaqəli idi. Flamandlar Belçikanın 5 şimal əyalətində yaşayırlar ki, bu da Belçika ərazisinin 44,29 faizi deməkdir. Fransanın şimalında 250 min flamand var. Hətta Niderland Krallığında da flamandların sayı az deyil. Bu da, onu deməyə əsas verir ki, Belçikada, Fransada və Niderland Krallığında da bu kimi aksiyaların olacağı hər zaman gözləniləndir.

olur ki, bu muxtar vilayətlər, hətta etnik qruplar belə bir-birinin ardınca baş qaldıracaq və öz müstəqilliyini tələb edəcək. Görünür, təkcə İspaniyanın xəritəsi hələ bundan sonra bir neçə dəfə dəyişdiriləbilər.

İspaniyadan öncə Belçikadakı flamandlar da bu monarxiyanın

## Kataloniyadakı referendum Avropanın sabitliyini pozacaq

Rusiyalı siyasi ekspert Pavel Klaçkov Kataloniyadakı referendumun nəticələrinin bir sıra Avropa ölkələrinin siyasi sabitliyinə ciddi təsir göstərə biləcəyini qeyd edərək, rəsmi Madridin öz resurslarından, Avropanın və dünyanın bir sıra ölkələrinin dəstəyindən istifadə etməklə, katalonların arzusuna qarşı özünü olduqca sərt və qətiyyətli aparacağını bildirir. Çünki Avropa ölkələri Kataloniyanın müstəqilliyindən qorxur və bunun Avropa məkanında "domino effekti" yaradacağından, eyni zamanda, bəzi ölkələrdə siyasi qeyri-sabitliyə səbəb olacağından ehtiyat edir.

Qərbin dünyanın müxtəlif ölkələrində separatizmə laqeyd münasibəti, bir çox hallarda dövlətlərin ərazi bütövlüyünə etinasızlıq göstərilməsi öz fəsadlarını elə Avropada verməyə başladı. İşğalçıya, separatçı qüvvələrə münasibətdə ikili standartlardan çıxış edən Qərb öz içindən parçalanmağa başladı. Kataloniyanın timsalında parçalanma meyilləri Avropanın mərkəzinə qədər irəlilədi. Başqa sözlə, İspaniyanın Kataloniya bölgəsində uzun illər davam edən separatçı hərəkatın ölkənin ərazi bütövlüyünü sual altında qoyması, məhz ikili standartlar siyasətinin Qərbin özünə qarşı çevrilməsinin açıq təzahürüdür. Belə ki, hazırda beynəlxalq siyasi proseslərdə müşahidə etdiyimiz xaosun günahkarları bəllidir və bir vaxtlar qonşu dövlətlərdə separatçılığa dəstək verənlər sabah özləri də separatizmlə üz-üzə qalacaqlarını bilməli idilər.

Digər ölkələrin ərazilərində dövlətin ərazisini zorakılıqla, silahlı yollarla qan tökərək parçalamağa çalışanlara qarşı qanuni tədbirlər görüləndə, bunu antidemokratik, insan hüquqlarını pozulması kimi qiymətləndirənlər, baş qaldıran separatçılığı "millətlərin öz müqəddəratını təyinetmə prinsipi" adı altında dəstəkləyənlər, necə olur ki, Kataloniyada referenduma qarşı çıxırlar, səsvermədə iştirak edənlərə qarşı zorakılıq tətbiq edirlər, onlar rezin güllə atəşinə tutur, atların döşünə qatıb əziştirir, seçki məntəqələrini bağlayır və bütün bu hərəkətlərini demokratiya adlandırırlar? Uzun illər ərzində Dağlıq Qarabağ problemini dinc yolla, oradakı ermənilərin maraqlarını nəzərə almaqla həll etməyi tovsiyyə edənlər Kataloniyaya qoşun yeritdi, seçki qutularını məhv etdilər və dinc əhali ilə toqquşmalar baş verdi. Təkcə bu fakt ikili yanaşmanın əyani sübutudur.

## Avropa indi anlayır ki, Azərbaycana qarşı bu illər ərzində nə qədər haqsızlıq edilib

Maraqlısı budur ki, müstəqil olmaq istəyənlər Avropanın aparıcı dövlətlərinin vətəndaşlarıdır və ən gülünc olanı isə həmin dövlətlərin başqa ölkələrdə separatçılıq meyillərini dəstəkləməsidir. Bunun ən aşkar nümunəsi isə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı məsələdir ki, məhz İspaniya, Britaniya, Belçika, Niderland, Fransa və başqaları Azərbaycanın ərazisinin işğal olunduğunu pisləyərək, separatçılara qarşı indiyədək heç bir sanksiya tətbiq etməyiblər. Bu sayaq susqunluqla dünyanın aparıcı dövlətləri beynəlxalq miqyasda separatçılıq hərəkatına dəstək verirlər.

Təbii ki, 25 ildir işğal faktı ilə yanaşı, separatçılıqla üz-üzə qalmış Azərbaycan İspaniyanı yaxşı başa düşür. Daha doğrusu, ərazi bütövlüyü məsələsində rəsmi Bakını işğalçı və separtçılarla eyni tərəziyə qoyan Avropa, indi anlayır ki, Azərbaycana qarşı bu illər ərzində nə qədər haqsızlıq edilib. Avropada separatçılığı dəstəkləyənlər anladılar ki, əgər kimsə "DQR"-i dəstəkləsə, biz də Qərbdəki separatçılığı dəstəkləyə bilərik. Biz illərdir ərazi bütövlüyünə qarşı təcavüzün cinayət olduğunu onların diqqətinə çatdıraraq, ölkənin süverenliyinin əsas götürülməli olduğunu bəyan etsək də, bunu onlara başa sala bilmirdik. Separatism hadisəsi öz başlarına gələndə, məcburdurlar ki, separatçılığın nə olduğunu, sonrakı mərhələdə həmin "silah"ın ən azından, özlərinə qarşı çevriləcəyini anlasınlar.

Kataloniya hadisəsinə qədər ərazi bütövlüyü məsələsində Azərbaycanı sülh danışıqları ilə problemi həll etməyə çağıranlar, indi başa düşürlər ki, separatizmə "yaşıl işıq" yandırmaq olmaz. Azərbaycana qarşı sərgilənən mövqe ikili standartlardan irəli gəlir. Ölkəmizin apardığı müstəqil və balanslı siyasət Avropa millətçiləri, ermənipərəst və anti-Azərbaycan qüvvələrin xoşuna gəlmədiyi üçün, ölkəmizin yürütdüyü siyasət onları razı sala bilmədiyi üçün, məhz ikili standartlı yanaşmaları ortaya qoyanlar bunun bir zaman onların özlərinə bumeranq effekti ilə dönəcəyini gec-tez anlamalı idilər. Vaxtilə Dağlıq Qarabağ münaqişəsində həmin ölkələrin separatçı və işğalçı ermənilərin başlarını sığallamaları və de-fakto dəstəkləməsi onların özlərinə çox baha başa gəlir və dünyanın heç bir ölkəsində, hər hansı regionda yaşayan etnik qrupun birtərəfli qaydada referendum keçirməsinin konstitusiyaya zidd olduğunu anlamaq zorundadırlar.

Faktlar sübut edir ki, beynəlxalq birlik dünyanın ayrı-ayrı yerlərində oxşar hadisələrə selektiv yanaşma nümayiş etdirməklə, işğal faktını kəskin qınanmaqla yanaşı, problemin həlli üçün ciddi təsir mexanizmləri işlənib-hazırlanır və qısa zamanda tətbiq edilir. Təəssüf ki, Azərbaycana qarşı ikili standartlar fonunda proseslərə passiv yanaşma, ədalətsiz mövqe müşahidə olunur və beynəlxalq hüquqa bu qədər açıq hörmətsizliyi, işğalçılıq siyasətinə bu qədər aşkar bəraət qazandırmaq cəhdini anlamaq çətindir.

***İnam HACIYEV***

# Bakıda MDB üzv dövlətlərinin təhlükəsizlik, xüsusi xidmət və hüquq mühafizə orqanlarının VII Regional ekspert müşavirəsi keçirilir

**_Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) dəstəyi və MDB iştirakçı dövlətlərin Terror Əleyhinə Mərkəzinin (MDB TƏM) təşkilatçılığı ilə oktyabrın 5-də Bakıda MDB üzv dövlətlərinin təhlükəsizlik, xüsusi xidmət və hüquq mühafizə orqanları bölmələrinin VII Regional ekspert müşavirəsi və Terror Əleyhinə Mərkəzin Elmi-məşvərət şurasının (EMŞ) geniş plenar iclası keçirilib._**



AZƏRTAC xəbər verir ki, tədbirdə Birlik ölkələrinin təhlükəsizlik, xüsusi xidmət və hüquq mühafizə orqanlarının, həmçinin Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin, Daxili İşlər və Ədliyyə nazirliklərinin, Baş Prokurorluğun, Dövlət Sərhəd Xidmətinin, Maliyyə Bazarlarına Nəzarət Palatasının monitorinq xidmətinin nümayəndə heyətləri, MDB-nin nizamnamə orqanları və sahələrarası əməkdaşlıq strukturlarının (İcraiyyə Komitəsinin, Sərhəd Xidməti Rəisləri Şurasının Koordinasiya Xidmətinin, MDB üzv dövlətlərinin ərazisində mütəşəkkil cinayətkarlıq və digər təhlükəli cinayətlərlə mübarizənin koordinasiyası üzrə Büronun, Baş Prokurorların Koordinasiya Şurasının, Maliyyə Kəşfiyyatı Bölmələri Rəhbərləri Şurasının, Penitensiar Xidmət Rəhbərləri Şurasının), eyni zamanda, ictimai və elmi dairələrin nüfuzlu təmsilçiləri iştirak ediblər.

Tədbirdə çıxış edən Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəis müavini general-mayor İsmayıl Bağırov iştirakçılara DTX rəisi general-leytenant Mədət Quliyevin salamlarını çatdıraraq iclasın işinə uğurlar arzulayıb. "Əminəm ki, bu görüş məhsuldar olacaq və MDB Terror Əleyhinə Mərkəzin qarşısında qoyulan tapşırıqların həyata keçirilməsində müsbət nəticələr verəcək", - deyə o vurğulayıb.

MDB Terror Əleyhinə Mərkəzi rəhbərinin müavini Marat Abdırayev Mərkəzin rəhbəri general-polkovnik Andrey Novikovun müraciətini iştirakçılara çatdırıb. "Birliyə üzv dövlətlərin təhlükəsizlik sahəsində əməkdaşlığı bu gün risklərin artması fonunda çox vacibdir. Belə şəraitdə xüsusi xidmət orqanlarından adekvat tədbirlərin görülməsi, real vəziyyətin təhlilinin aparılması, qarşılıqlı fəaliyyət tələb olunur. Əminliyimi bildirmək istəyirəm ki, bu görüş konstruktiv fikir mübadiləsi şəraitində keçəcək, əməkdaşlığın gücləndirilməsi və Birlik məkanında terror əleyhinə fəaliyyətin yeni konturlarının yaranmasına şərait yaradacaq", - deyə müraciətdə bildirilir.

Terror Əleyhinə Mərkəzin Elmi-məşvərət şurasının sədri Marianna Koçubey beynəlxalq terrorizmin fəaliyyətinin istiqamətləri, yayılması yolları haqqında araşdırmaların nəticələri haqqında məlumat verib. Bildirib ki, Suriya və İraq ərazisindəki terror qruplaşmalarının üzvlərinin digər ölkələrin ərazisinə keçməsi halları var. O, terror təşkilatlarının distant cəlbetmə üsulundan vətəndaşların münaqişə zonalarına aparılmasında geniş istifadə etdiklərini qeyd edib. Marianna Koçubey terror təşkilatlarının internet vasitəsilə insanlara təsirini azaltmaq üçün Birlik dövlətlərinin qarşılıqlı təmasda fəaliyyətinin vacibliyini önə çəkib və bu işdə mülki strukturlarla da əməkdaşlıq edildiyini diqqətə çatdırıb.

Ekspert müşavirəsində və EMŞ-in iclasında iştirak etmək üçün ilk dəfə BMT Təhlükəsizlik Şurasının İŞİD, "Əl-Qaida" və Taliban üzrə Monitorinq qrupunun nümayəndələri dəvət olunublar. Keçirilən məsləhətləşmələrin məqsədi MDB dövlətlərinin müvafiq orqanlarının əməkdaşlıq əlaqələrinin qurulması, təcrübə mübadiləsi və MDB-də terrorizmə və ekstremizmə qarşı səmərəli texnologiyaların formalaşdırılması məsələlərini müzakirə etməkdir.

Elmi-məşvərət şurasının və VII Regional ekspert müşavirəsinin birgə plenar iclasında MDB üzv dövlətlərinin vətəndaşları sırasından tərəfdaşların cəlb edilməsi məqsədilə beynəlxalq terror təşkilatlarının tətbiq etdiyi distant təsir texnologiyaları, beynəlxalq terror təşkilatlarının Birlik məkanında distant rejimdə cəlbetmə fəaliyyətinin regional xüsusiyyətləri, cəlbetmə baxımından daha zəif vətəndaş kateqoriyasının sosial-psixoloji səciyyəsi, beynəlxalq terror təşkilatlarının distant təsirinə qarşı əks tədbirlərin təşkili zamanı MDB üzv dövlətlərinin müvafiq orqanlarının əməkdaşlığının əsas istiqamətləri, forma və metodları, vətəndaşların beynəlxalq terror təşkilatlarının fəaliyyətinə cəlb edilməsinə qarşı Birlik ölkələrinin təhlükəsizlik, xüsusi xidmət və hüquq mühafizə orqanlarının əks-təbliğat işi müzakirə olunub.

Ekspertlərin rəyinə görə, MDB ölkələri üçün terror təhlükəsi əvvəlki kimi yüksək olaraq qalır. Bunlardan ən narahatedici məqam beynəlxalq terror təşkilatlarının emissarları tərəfindən Birlik ölkələri vətəndaşlarının aktiv cəlbetmə fəaliyyətidir. Bu gün internet məkanından MDB dövlətləri vətəndaşlarının həm terrorçuluqda iştirakına çağırış, həm də etiraz fəaliyyətinə cəlb edilməsi üçün istifadə olunur və onların radikallaşması və müxtəlif xarakterli tapşırıqların yerinə yetirilməsi işində istifadə edilir. Belə ki, hazırkı araşdırmalara görə, 2014-cü ildən 2017-ci ilədək internet şəbəkəsində ekstremist məzmunlu materialların sayı altı dəfədən çox artıb.

MDB-nin Terror Əlyehinə Mərkəzinin apardığı təhlillər göstərir ki, Birlik ölkələrində girişi qadağa qoyulan internet resurslarının 90 faizdən çoxu MDB hüdudlarından kənarda idarə olunur. Sosial şəbəkələr və müxtəlif mobil platformalar beynəlxalq terror təşkilatları tərəfindən münaqişələrin qızışdırılması və təhrikçilik üçün istifadə edilir. Bundan başqa, idarə edilən etirazçılar qrupu küçələrə çıxarılır, qeyri-qanuni hərəkətlərə, hüquq mühafizə orqanları ilə toqquşmalara təhrik edilir.

Ekspertlər qeyd edirlər ki, yeniyetmələr və gənclər arasında yeni növ cəlbetmə və şifrələnmiş mobil əlavələr və mesencerlərlə idarə olunan sosial şəbəkələr vasitəsilə radikal qrupların yaradılması prosesi gedir. Mütəxəssislərin qiymətləndirməsinə görə, hazırda distant cəlbetmə fəaliyyəti texnologiyalarından istifadə fərdiləşdirilmiş terrorizmin inkişafına şərait yaradan əsas amildir.

## "YARAT" da yeni filmin təqdimatı olacaq




"YARAT" Müasir İncəsənət Mərkəzində Polşanın ölkəmizdəki səfirliyinin təşkilatçılığı ilə "Sosial dəyişiklik üçün kino" layihəsi çərçivəsində film təqdimatı olacaq. AZƏRTAC xəbər verir ki, layihə Adam Mitskeviç İnstitutu və "IMAGINE Euro Tolerance" Festivalı və "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı çərçivəsində reallaşacaq. Builki festival fərdi azadlıq, onun hüdudları və insanları anlamaq qabiliyyətinə həsr olunub. Festival dünyanın müxtəlif ölkələrindən olan kinorejissorların yaratdığı çox mühüm filmlərlə yanaşı, müzakirələr, sual-cavab sessiyaları və seminarlar kimi bir sıra tədbirləri əhatə edəcək. Layihənin kuratoru ABŞ-ın tanınmış kinorejissoru, professor Riçard Penadır. O, kino dünyasında tanınmış simalardan biri olmaqla yanaşı, Kolumbiya Universitetinin kino tədqiqatları şöbəsinin professoru və "Lincoln Center" Film Cəmiyyətinin proqram direktorudur.



## Avropa Şurası -ədalət prinsipi, yoxsa qərəzli dairə

**Rəfiqə**

**_Hər zaman olduğu kimi, bu gün də Avropa Şurasının bəzi rəsmi şəxslərinin qərəzli və şər-böhtan dolu fikirləri müəyyən siyasi dairələrin əsassız sözlərinin yayılmasına səbəb olub. Məqsəd də Azərbaycanın müstəqil siyasətinə kölgə salmaqdır. Azərbaycanın istər daxili, istərsə də xarici siyasəti Avropada müəyyən dairələrin vaxtaşırı qıcığına tuş gəlmişdir. Daxili işlərimizə qarışmaqla, əslində, onlar özlərini Azərbaycanın üzərində bir məhkəmə funksiyası rolunu oynamağa cəhd göstərirlər._**

Azərbaycanda demokratiyanın inkişafı, insan haqlarının qorunması istiqamətində gördüyü işlərə isə göz yumurlar. Ölkəmizdə iqtisadi problemlərin həll edildiyi, neftdən gələn gəlirlərin insanların sosial rifahının yaxşılaşdırılmasına yönəldildiyi istiqamətdə görülən işləri görməməyə çalışır. Əvəzində isə, Azərbaycanda konkret cinayət əməlinə görə həbs olunmuş şəxsin müdafiəsinə qalxırlar və Azərbaycana siyasi təzyiq göstərməyə çalışırlar. Həmin şəxslərinsə xarici xüsusi xidmət orqanları ilə əməkdaşlığa və qeyri-qanuni sahibkarlığa görə həbs edilməsi faktını isə nəzərə almamağa çalışırlar.

### Turbyern Yaqland yenə də öz ampluasında

Azərbaycana qarşı daim qərəzli və düşmən mövqeyi ilə tanınan Avropa Şurasının baş katibi Turbyern Yaqland yenə də öz ampluasındadır. O, Avropa Şurası ölkələrinin səfirləri ilə görüşündə Azərbaycanı qurumdan uzaqlaşdırmaq hədəsi ilə çıxış etməsi və səbəb kimi Avropa İnsan Hüquqları Məhkəməsinin qərarının icra edilməməsini göstərməsi, bir daha onun qərəzli mövqedə olduğunun təsdiqidir. Bir də bu, o T.Yaqlandır ki, bir sıra Qərb dairələrində Azərbaycan əleyhinə aparılan kampaniyalarda, qarayaxma və böhtan hesabtlarında hər zaman canfəşanlığı ilə seçilib. İndi də onun Avropa Şurasının "siyasi məhbus" kimi qələmə verdiyi İlqar Məmmədovun azadlığa buraxılması ilə bağlı qərarının icra olunmamasına görə, Azərbaycana qarşı misli görünməmiş hüquqi prosedurlara çağırması, əslində, təəccüb doğurmur. Çünki bu, Azərbaycanın Avropa Şurasında daim məruz qaldığı ikili standartın növbəti nümunəsidir. Belə olmasaydı, bu qurum bir sıra aktual və daha çox müzakirə aparılacaq məsələlərə göz yummazdı. Yaxşı olardı ki, Azərbaycana qarşı daim qərəzli və düşmən mövqeyi ilə tanınan Avropa Şurasının baş katibi, daha dəqiq desək, "başbiləni" T.Yaqland kimilər bir dəfə də dönüb öz arxalarına baxıb görsünlər ki, Avropa Şurasının minlərlə qərarı hələ də kağız üzərində qalıb. Amma Azərbaycan 2001-ci ildə Avropa Şurasına daxil olduqdan sonra üzərinə götürdüyü bütün öhdəlikləri yerinə yetirir və ya yerinə yetirməyə çalışır. Azərbaycan Prezidenti İlham Əliyev də öz çıxışlarında vurğulayıb ki, Azərbaycan əxlaqlı siyasət yeridir. Amma zaman-zaman biz Avropa Şurasından gözlədiklərimizin əksini alırıq. Belə olan halda, Azərbaycanın Avropa Şurasına üzvlüyünün nə faydası? Bir sözlə, əgər Azərbaycana qarşı bu cür bəyanatlar davam etsə, təbii ki, Azərbaycan Avropa Şurası ilə əlaqələrini kəsməli və bu quruma üzvlük məsələsini yenidən nəzərdən keçirməlidir.

# “25 il dövlətçilik uğrunda”

## Bu mövzuda Yeni Azərbaycan Partiyası Naftalan şəhər təşkilatı tədbir keçirib



***Dünən YAP Naftalan şəhər təşkilatının Qaz İstismar İdarəsi ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25-ci ildönümü ilə əlaqədar “25 il dövlətçilik uğrunda” adlı növbəti tədbir keçirib.***

Tədbirdə çıxış edən YAP Naftalan şəhər təşkilatının sədri Hatəm Qocayev bildirib ki, Ulu Öndər Heydər Əliyevin zəkası ilə yaranan, məhz Onun şəxsiyyəti ətrafında formalaşan Yeni Azərbaycan Partiyası müasir dövrdə beynəlxalq arenada tanınan, qəbul edilən nüfuzlu partiyalar sırasında öz mövqeyini saxlayan siyasi təşkilatdır: “Sözsüz ki, partiyanın yüksək nüfuzu, bilavasitə onun yaradıcısı Ulu Öndər Heydər Əliyev şəxsiyyəti ilə, eyni zamanda, partiyanın Sədri, Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik siyasətlə bağlıdır”.

Rayon təşkilatının sədri vurğulayıb ki, partiyanın yaranma tarixini zəruri edən səbəb isə, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkədəki ictimai-siyasi vəziyyət idi: “Yenicə müstəqillik qazanan Azərbaycan həmin vaxtlar siyasi tənəzzül dövrünü yaşayırdı və burada obyektiv səbəblərdən daha çox subyektiv amillər var idi. Bu, birbaşa müstəqilliyimizin ilk illərində ölkəyə rəhbərlik edənlərin səriştəsizliyinin, təcrübəsizliyinin və qorxaqlıqlarının təzahürləri idi. Bütün mənada, ölkədə özbaşınalıq və xaos hökm sürürdü. Bir tərəfdən də, torpaqlarımız erməni işğalçıları tərəfindən zəbt edilirdi. Hətta proseslər, o həddə gəlib çatmışdı ki, artıq Azərbaycan dövlətçiliyi məhv olmaq ərəfəsində idi və elə bu dövrdə Azərbaycanın bu gününü və sabahını düşünən insanlar nicat yolunu Heydər Əliyevdə gördü”.

Tədbirdə digər çıxış edənlər o fikri vurğulayıblar ki, YAP yarandığı vaxtdan etibarən partiyanın tərkibində bütün təbəqələrdən və zümrələrdən olan insanlar təmsil olunur: “Bu gün də Ümummilli Liderə olan sevgi, etimad, onun ideyalarına olan sədaqət, eləcə də, Cənab Prezident, partiyanın Sədri İlham Əliyevə olan inam və etimad davam etməkdədir. Bu gün 700 mindən çox üzvü olan Yeni Azərbaycan Partiyası ümumxalq partiyasına çevrilib”.

**ZÜMRÜD**

# Yeni Azərbaycan Partiyası - yeni imkanlara və hədəflərə doğru!

## Gəncədə YAP-ın yaranmasının 25-ci ildönümü ilə bağlı tədbir keçirilib




***Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş geniş tədbirlər planına uyğun olaraq, YAP Gəncə şəhər təşkilatının təşkilatçılığı ilə Gəncə Dövlət Universitetində gənclərlə görüş keçirilib.***

Tədbiri giriş sözü ilə açan YAP GDU ərazi ilk partiya təşkilatının sədri Cavid Bağırzadə partiyanın 25 illiyinin, ölkəmizin hər yerində olduğu kimi, qədim mədəniyyət mərkəzi olan Gəncə şəhərində yüksək təntənələrlə qeyd olunduğunu vurğulayıb. Natiq bildirib ki, xalqın istəyi ilə yaranan Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın keçdiyi inkişaf yolunun bələdçisidir.

Tədbirdə YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev çıxış edərək Ulu Öndər Heydər Əliyevin dahiyanə uzaqgörənliklə müəyyənləşdirdiyi siyasətin Azərbaycanın qarşısında yeni-yeni imkanlar açdığını, yeni hədəflər müəyyənləşdirdiyini bildirib. Gənclərin Azərbaycanın ayıq-sayıq və ən iti görən gözü, tarixin bütün dövrlərində inkişafın hərəkətverici qüvvəsi olduğunu qeyd edən millət vəkili Gəncə gənclərinin də ölkə başçısı, partiyanın Sədri İlham Əliyevin ətrafında sıx birləşdiyini, Vətənimizin tərəqqisi, dövlətçiliyimizin möhkəmləndirilməsi, Gəncənin çiçəklənməsi naminə hər bir sahədə böyük fəallıq göstərdiyini bildirib. Tədbirdə çıxış edən millət vəkili Pərvin Kərimzadə YAP Gəncə şəhər təşkilatında gənclərlə aparılan işlərdən ətraflı bəhs edib, onların şəhər təşkilatının tədbirlərində fəallıqları ilə seçildiyini və təşkilatın gəncləri önə çəkdiyini bildirib.

Digər çıxışçılar - GDU-nun humanitar məsələlər üzrə prorektoru, dosent Gülsüm Fətəliyeva, universitetin tarix-coğrafiya fakültəsinin dekanı Urfan Həsənov, tarix fakültəsinin müəllimi Emma Aslanova və digərləri bildiriblər ki, Azərbaycanın bugünkü inkişafı və tərəqqisi hər bir ölkə vətəndaşında, o cümlədən, Yeni Azərbaycan Partiyasının hər bir üzvündə qürur hissi oyadır. Tədbirin sonunda YAP sıralarına yeni üzv olmuş gənclərə partiya vəsiqələri təqdim edilib.

**Rövşən RƏSULOV**

# YAP Ağcabədi rayon təşkilatı partiyanın yaradılmasının 25 illiyi münasibətilə dəyirmi masa keçirib

***Dünən YAP Ağcabədi rayon təşkilatının Telekommunikasiya qovşağı ərazi ilk partiya təşkilatında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə dəyirmi masa keçirilib.***

Tədbiri giriş sözü ilə Telekommunikasiya Qovşağı ərazi ilk təşkilatının sədri İbrahim Həsənov açaraq, Yeni Azərbaycan Partiyasının yaranmasından, keçdiyi tarixi inkişaf yolundan və ölkənin ictimai-siyasi həyatında oynadığı roldan danışıb.



Tədbirdə çıxış edən YAP Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov yubiley münasibətilə siyasi həmfikirlərini təbrik edərək, bildirib ki, ötən əsrin 80-ci illərinin sonu, doxsanıncı illərin əvvəllərində Azərbaycanda ictimai-siyasi vəziyyət çox gərgin idi: “Erməni separatçılarının torpaq iddiası, SSRİ rəhbərliyinin ermənilərin qanunsuz tələblərinə rəvac verməsi, o zaman hakimiyyətdə olan AXCP-Müsavat cütlüyünün səriştəsiz rəhbərliyi sayəsində ölkədə anarxiya və hakimiyyətsizlik hökm sürürdü. Xalq bu xaos vəziyyətindən çıxış yolunu yalnız təcrübəli, müdrik siyasətçi, xalqını sevən, onun uğrunda həyatından keçməyə hazır olan Heydər Əliyev şəxsiyyətində gördü. Belə bir zamanda bir qrup ziyalı Naxçıvanda yaşayan Ulu Öndər Heydər Əliyevə müraciət edərək, xalqı öz ardınca aparmağı bacaran, ölkəni düşdüyü böhrandan çıxarmağa qadir olan bir siyasi partiyanın yaranmasının obyektiv zərurət olduğunu bildirdi. Heydər Əliyev xalqın səsinə və “91-lər” adlanan həmin ziyalıların çağırışına cavab olaraq, yeni bir partiyanın yaranmasına razılıq verdi”.

Dəyirmi masada partyanın fəallarından Yaqub Əliyev, Teymur Şərifzadə, Zeynal Zeyniyev, rayon təşkilatının əməkdaşı Mehman Novruzov çıxış edərək, Yeni Azərbaycan Partiyasının keçdiyi tarixi yol barədə öz fikirlərini bildiriblər. Natiqlər qeyd ediblər ki, 25 il əvvəl ağır məhrumiyyətlər dövrünü yaşayan Azərbaycan indi möhtəşəm beynəlxalq tədbirlərə ev sahibliyi edən, dünyanın siyasi səhnəsində öz sözünü deməyi bacaran, davamlı inkişafa və iqtisadi potensiala malik, multikultural və tolerantlıq dəyərlərinə söykənən bir ölkədir. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının Sədri, ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatlar, reallaşdırdığı yeni qlobal lahiyələr ölkəmizin rəqabətə davamlı iqtisadiyyata sahib olmasına, qeyri-neft sektorunun inkişafına gətirib çıxardığı vurğulanıb və bu inkişafın əldə edilməsində Yeni Azərbaycan Partiyasının üzvlərinin xüsusi payı olduğu qeyd olunub.

**Z.BAYRAMOVA**

# “Buta Airways” Bakı-Kiyev-Bakı istiqamətində reyslərin sayını artırır

***Azərbaycanın ilk aşağıbüdcəli aviaşirkəti olan “Buta Airways” Kiyevə uçuşların sayını artırmaq qərarına gəlib. Şirkətin Ukrayna nümayəndəliyindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 29-dan başlayaraq “Buta Airways” Bakı-Kiyev-Bakı reysi ilə həftədə 3 dəfə - çərşənbə axşamı, çərşənbə və cümə günləri uçuşlar həyata keçirəcək. Aviareyslərin sayının artırılması tələbatın çoxluğu ilə bağlıdır.***

Qeyd edək ki, “Buta Airways” Bakı-Kiyev-Bakı istiqamətində hazırda həftənin çərşənbə axşamı və çərşənbə günü uçuşlar həyata keçirir.

Xatırladaq ki, loukost aviaşirkət olaraq, “Buta Airways” aviareyslərdə baqajın, əl yükünün daşınması, təyyarə göyərtəsində isti yeməklər, eləcə də təyyarədə yer seçimi kimi əlavə xidmətləri ödəniş müqabilində təklif edir. Üç ölçünün cəmi üzrə 110 santimetrdən artıq olmayan ölçüdə və çəki məhdudiyyəti tətbiq olunmayan əl yükünün daşınması 25 avro təşkil edir. Analoji qiymətə çəkisi 23 kiloqrama qədər (daxil olmaqla) və üç ölçünün cəmi üzrə 158 santimetrdən artıq olmayan ölçüdə qeydiyyatdan keçirilən baqajı daşımaq mümkündür. Saytda və ya kassada öncədən baqaj yeri üçün ödəniş edildikdə qiymət 20 avro təşkil edir.

Aviaşirkətin bütün reyslərində sendviçlər və su pulsuz olaraq təqdim olunur. İsti yeməyi aviabiletin alınması prosesi zamanı 7,90 avro ödəniş etməklə öncədən sifariş etmək mümkündür. Həmçinin təyyarənin göyərtəsində müxtəlif içkilər və soyuq qəlyanaltılar əldə etmək mümkündür. Aviaşirkətin donanması müasir “Embraer” təyyarələrindən ibarətdir.

# Oktyabrın 5-dək ölkə üzrə 57 min 361 ton pambıq təhvil verilib



Son günlər havaların əlverişsiz keçməsi yığım kampaniyasına mane olsa da, ölkəmizdə pambıq tədarükü davam edir. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 5-dək pambıq qəbulu məntəqələrinə ölkə üzrə 57 min 361,87 ton məhsul təhvil verilib. Pambıq tədarükündə əvvəlki kimi Saatlı rayonu öndədir. Rayonun fermerləri indiyədək məntəqələrə 10925,60 ton məhsul təhvil veriblər. Biləsuvarda 6953,65 ton, Sabirabadda 6075,69 ton, Beyləqanda 4545,14 ton, Ağcabədidə 4510,44 ton pambıq tədarük olunub. Qeyd edək ki, ölkə üzrə cari ildə ötən illə müqayisədə 2,7 dəfə çox - 136 min 413,2 hektar çiyid səpilib. Bu il ən çox pambıq Saatlıda (17220 hektar), İmişlidə (15641,5 hektar), Sabirabad (15055 hektar), Biləsuvar (11351,8 hektar) və Neftçalada (11111 hektar) əkilib.

# "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"

*Avropa İttifaqı və Dünya Bankı tərəfindən təqdim olunan hesabatlar nəzərə alınmaqla, büdcə mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanıb*



***Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsinin yarımillik monitorinq və qiymətləndirilməsini əks etdirən rəqəmlər ictimailəşdirilib. Təqdim edilən sxemdə bütün sahələr üzrə ümumi nəticə və hədəflər əks etdirilib və ayrı-ayrılıqda göstərilən rəqəmlərdən də aydın olur ki, hesabatın nəticələri özündə bir sıra uğurları ehtiva etməkdədir.***

2017-ci ilin ilk altı ayı ərzində "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə müəyyən edilmiş tədbirlərin 32 faizinin icrası tamamlanıb, 59 faizinin icrası üzrə işlərə başlanılıb. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi məqsədilə büdcə qaydalarının parametrləri beynəlxalq təcrübə nəzərə alınmaqla müəyyənləşdirilib və razılaşdırılıb, büdcə qaydaları tətbiq olunacağı təqdirdə, dövlət və icmal büdcə göstəricilərinə təsiri və yarana biləcək risklər təhlil edilib, o cümlədən, proqnoz göstəriciləri hazırlanıb. Avropa İttifaqı və Dünya Bankı tərəfindən təqdim olunan hesabatlar nəzərə alınmaqla, Ortamüddətli Xərclər Çərçivəsinin və nəticəəsaslı büdcə mexanizmlərinin yaradılmasına dair təkliflər hazırlanıb. Makroiqtisadi koordinasiya təmin edilib, məzənnə rejiminin çevikliyi artırılıb.

2017-ci ilin ilk altı ayı ərzində "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"ndə müəyyən edilib, tədbirlərin 6 faizinin icrası tamamlanıb, 45 faizinin icrası üzrə işlərə başlanılıb. Beləliklə, Azərbaycan Respublikasında logistika və ticarətin inkişafı istiqamətində bir sıra işlər görülüb. Misal üçün, Ələt Azad Ticarət Zonasının yaradılması ilə əlaqədar bir sıra investorların cəlb edilməsi istiqamətində işlər görülüb, ilkin olaraq Birləşmiş Ərəb Əmirliklərinin "DP World" şirkəti ilə danışıqlar aparılıb. Eyni zamanda, logistika sahəsində əməliyyatların təkmilləşdirilməsi istiqamətində avtomobil yollarının və bu yollardakı körpülərin, qurğuların və suötürücü boruların ağır yüklərə qarşı etibarlığının və prioritet marşrutlarda yük hədlərinin artırılması məqsədilə reabilitasiya layihələrinin hazırlanması üçün müvafiq norma və standartlar hazırlanıb.

Azərbaycanda yükdaşıma və yükaşırma xidmətlərinin təkmilləşdirilməsi istiqamətində Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı layihəsi çərçivəsində limanın avadanlıqlarla təminatı məqsədilə 6 portal kranın sifarişi verilib, limanın tikintisinin ilkin baş planı üzrə ekspertlərlə birgə optimallaşdırma aparılıb və layihəyə dəyişiklik edilərək yükaşırma potensialı 10 milyon ton və 50 min TEU-dan 15 milyon ton və 100 min TEU-ya çatdırılıb.

Dəmir yolu infrastrukturunun yaxşılaşdırılması üzrə təhlillərin aparılması yükgöndərən (yükalan) və nəqliyyat operatorları (ekspeditorlar) ilə dəmir yolu arasında operativ və çevik əlaqələrin yaradılması məqsədilə "Azərbaycan Dəmir Yolları" QSC-də Avtomatlaşdırılmış İdarəetmə Sistemi yaradılıb. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində 8,3 km uzunluğunda "Astara Azərbaycan-Astara İran" yeni dəmir yolu xəttinin və Astara çayı üzərindəki dəmir yolu körpüsünün tikinti işləri başa çatdırılıb. O cümlədən, dəmir yolu körpüsündən İran ərazisində tikiləcək dəmiryol stansiyasına və yük terminalına qədər (İran İslam Respublikasının ərazisində) 1,4 km-lik hissənin 500 p.m dəmir yolu xətti çəkilib.

Həmçinin, Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanının ərazisinin daxil olduğu azad ticarət zonasının hüquqi rejiminin hazırlanması üzrə cəlb olunmuş beynəlxalq məsləhətçi şirkət tərəfindən "Azad zonalar haqqında" Azərbaycan Respublikası qanununun ilkin versiyası hazırlanaraq, hökumətə təqdim edilib. Logistika sahəsində kadr potensialının gücləndirilməsi istiqamətində "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC ilə Azərbaycan Texnologiya Universiteti arasında cari ilin aprel ayında kadr hazırlığı üzrə memorandum imzalanıb və cəmiyyət tərəfindən universitetdə logistika laboratoriyası yaradılaraq, tələbələrin istifadəsinə verilib.

Əsas problemlər: beynəlxalq ticarətdə logistika sahəsi üzrə Azərbaycanın hədəflərinin müəyyən edilməsi istiqamətində işlər sürətlə və əlaqələndirilmiş şəkildə aparılmır.

Tövsiyələr: 1.1.1-ci tədbir üzrə Strateji Yol Xəritəsində müəyyən edildiyi qaydada aidiyyəti qurum tərəfindən sektorial hədəflər təyin edilərək, idxal-ixrac əməliyyatları üzrə proqnozlaşdırma aparıla, müvafiq qurumların imkan və resursları təhlil oluna, logistika və ticarət sahəsi üzrə Azərbaycanın xüsusi hədəfləri və əsas icra göstəriciləri müəyyən edilə bilər.

***Rövşən NURƏDDİNOĞLU***

# Britaniyalı yazıçı ədəbiyyat üzrə Nobel mükafatının laureatı olub



Ədəbiyyat sahəsində Nobel mükafatına yapon əsilli britaniyalı yazıçısı Kadzuo İşiquro layiq görülüb. AZƏRTAC xəbər verir ki, bu barədə İsveç Akademiyasının daimi katibi Sara Danius xüsusi tədbirdə məlumat verib. Qeyd edək ki, Kadzuo İşiquro Yaponiyanın Naqasaki şəhərində anadan olub, sonradan isə 5 yaşında olarkən ailəsi ilə birlikdə Böyük Britaniyaya köçüb. Bu gün İşiquro ingilis dilində yazan dünyanın ən məşhur müasir bədii müəlliflərindən biridir, öz əsərlərinə görə o müxtəlif mükafatlara layiq görülüb. Qeyd edək ki, 2016-cı ildə bu mükafatın laureatı məşhur amerikan musiqiçi və yazıçısı Bob Dilan olub.

# Eldəniz Səlimov: "Baş katibin mövqeyini başa düşmək olmur"



Avropa Şurası baş katibinin Azərbaycan Məhkəməsi tərəfindən həbs olunaraq, azadlıqdan məhrum olunan "REAL" Hərəkatının sədri İlqar Məmmədovun azadlığa buraxılmayacağı təqdirdə, Azərbaycana qarşı müəyyən sanksiyaların tətbiq olunması çağırışı ilə çıxış edib. Bu şəxsin Azərbaycana qarşı qərəzinin kökündə hansı səbəblər dayanır? Ümumiyyətlə, baş katibin, Avropa Şurası adından bu dərəcədə çıxış etməsinə kim səlahiyyət verib? Millət vəkili Eldəniz Səlimov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Azərbaycan Məhkəməsi tərəfindən törətdiyi cinayət əməllərinə görə həbs olunaraq azadlıqdan məhrum edilən "REAL" Hərəkatının sədri İlqar Məmmədovun azadlığa buraxılma tələbini edən Avropa Şurası baş katibinin mövqeyini başa düşmək olmur. Dünyanın bütün ölkələrində, törətdiyi cinayət əməlinə görə, ölkədə tutduğu mövqeyindən, irqindən, xidmət etdiyi qurumların növündən asılı olmayaraq hər bir vətəndaş məsuliyyətə cəlb olunur. Son vaxtlar "qoca qitə" adlandırdığımız Avropa ölkələrində müxtəlif hadisələr, toqquşmalar, digər ölkələrin daxili işlərinə qarışma prosesləri baş alıb getdiyi bir dövrdə Avropa Şurasının baş katibinin cinayət əməlinə görə həbs olunan bir nəfərə görə, Azərbaycana qarşı qərəzli mövqe tutaraq İlqar Məmmədovun azadlığa buraxılmayacağı təqdirdə, Azərbaycana qarşı müəyyən sanksiyaların tətbiq olunması çağırışı təəccüb doğurur. İlk öncə, baş katibin şuranın adından danışması qurumun formallığından xəbər verir. Avropa Şurası baş katibinin bu cür qərəzli mövqedən çıxış etməsi bəlkə də, Azərbaycanın sürətli inkişafının ona pis təsir etməsindən irəli gəlir. Avropa Şurasının baş katibi, Avropa ölkələrinin separatçı qüvvələri tərəfindən yaradılmış müharibə ocaqları nəticəsində, qaçqın düşmüş və bu qitəyə pənah gətirən insanlara qarşı amansız qarşıdurmaları törədənlərlə maraqlanmağı məsləhət bilirik. Bir milyon qaçqını olan, 20 faizi torpaqları işğal olunmuş Azərbaycan dövlətinin ərazi bütövlüyünün bərpa olunması qaçqınların yurd-yuvasına qayıtmaları üçün indiyə qədər səsini qaldırmayan baş katibin bir nəfər cinayətkarın taleyi ilə maraqlanması şübhə doğurur. Azərbaycan dövləti müstəqil, hüquqi və demokratik dövlətdir.

***GÜLYANƏ***

# Binəqədidə 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü qeyd olunub




Binəqədi rayon icra hakimiyyətinin dəstəyi, YAP Binəqədi rayon təşkilatı, Binəqədi rayon gənclər və idman idarəsi və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Binəqədi rayon komitəsinin birgə təşkilatçılığı ilə 5 Oktyabr Beynəlxalq Müəllimlər Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun sektor müdiri Hacı Abdulla, Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, Azad Həmkarlar İttifaqının Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Möhsün Nağısoylu və Binəqədi rayon "Ziyalılar" Cəmiyyətinin sədri Asəf Zamanov müəllimlərin uşaq və gəncləri vətənə məhəbbət ruhunda tərbiyə etdiyini, onların vətənin müdafiəsinə hazırladıqlarını vurğulayaraq, xalqın gələcəyinin müəllimlərin əsas silahı olan bilikdən asılı olduğunu qeyd ediblər.



Tədbirdə Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva çıxış edərək, rayon rəhbərliyi adından müəllimləri təbrik edərək, son illər, bir sıra sahələrdə olduğu kimi, ölkədə təhsil sahəsində də yaddaqalan uğurların əldə edildiyini bildirib.

Daha sonra Beynəlxalq Müəllimlər Günü münasibətilə təhsil sahəsində qazandığı uğurlara və rayonun ictimai həyatında fəal iştirakına görə, bir qrup təhsil işçisi Fəxri Fərman və hədiyyələrlə təltif olunub.

Çıxışlardan sonra tədbir bədii hissə ilə davam etdib və rayonun istedadlı gəncləri öz şeir, mahnı və rəqs nümunələri ilə müəllimləri təbrik ediblər.

***ZÜMRÜD***

# Ölkəmizdə əhaliyə yüksək tibbi xidmət göstərilir

***Ümummili Lider Heydər Əliyevin Azərbaycanın iqtisadi tərəqqisinə xidmət edən siyasi xətti bu gün ölkəmizin bütün sahələrində özünü büruzə verir. Səhiyyə sahəsində dövlət siyasətinin başlıca məqsədi ölkə vətəndaşlarının sağlamlığının yaxşılaşdırılmasından, əhalinin bütün təbəqələrinin keyfiyyətli tibbi xidmətlə təmin edilməsindən ibarətdir.***

Bu məqsədlə Ulu Öndər Heydər Əliyev kursunun layiqli davamçısı Azərbaycan Prezidenti Cənab İlham Əliyevin uğurla davam etdirdiyi siyasi xətt ölkəmizdə, digər sahələrdə olduğu kimi, səhiyyənin inkişafına da müsbət təsirini göstərməkdir. Prezident İlham Əliyevin Sərəncam və islahatları nəticəsində, son illər səhiyyənin maddi-texniki bazası möhkəmləndirilmişdir. Azərbaycanda sosial və səhiyyə sahələrində həyata keçirilən genişmiqyaslı islahatlar dünyada olan nüfuzlu qurumların da diqqət mərkəzindədir.

Ölkə səhiyyə sistemində istifadəyə verilən yeni tibb ocaqlarının sayı artmaqdadır. Paytaxt və bölgələrdə müasir elmi mərkəzlər, tibbi mərkəzlər, diaqnostika-müalicə mərkəzləri qurulub. Belə ki, Bərdə Mərkəzi rayon Xəstəxanası, Akademik M.Mirqasımov adına Respublika Klinik Xəstəxanasında Oftalmologiya şöbəsi, Respublika Elmi-Praktik Hemofiliya Mərkəzi və başqaları əsaslı təmirdən sonra istifadəyə verilib. Ən müasir tibbi avadanlıqlarla təchiz olunmuş səhiyyə müəssisələri əhaliyə yüksək səviyyədə xidmət göstərir. Bütün bunlar göstərir ki, səhiyyə sahəsində qəbul edilmiş dövlət proqramlarının icrası uğurla davam etdirilir.

Hazırda Azərbaycan səhiyyəsi, bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşayır. Bu gün ölkəmizdə səhiyyə sahəsində qəbul edilmiş dövlət proqramlarının icrası uğurla davam etdirilir. Əhalinin sağlamlığının qorunması Azərbaycan dövlətinin qarşıya qoyduğu prioritet istiqamətlərdən biridir. Son illərdə səhiyyə sisteminin inkişafı naminə kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi üçün mühüm addımlar atılır. Prezident İlham Əliyevin təşəbbüsü ilə bu sahədə həyata keçirilən tədbirlər Azərbaycan səhiyyəsinin işinin daha yaxşı təşkilinə geniş imkanlar açıb. Azərbaycanda səhiyyə sisteminin yenidən qurulması, əhalinin sağlamlığının daha yaxşı təşkili, bu sahədə yeni texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları tibbi xidmətin səviyyəsini yüksəldib.



Yeni istifadəyə verilən səhiyyə ocaqlarında dünyanın inkişaf etmiş ölkələri olan Almaniya və İsveçrə kimi ölkələrdən gətirilmiş avadanlıqlar quraşdırılıb. Həmin avadanlıqlar dünyanın aparıcı elmi mərkəzlərində mövcuddur. Bu, onu göstərir ki, Azərbaycanda səhiyyə sistemində aparılan islahatlar və görülən işlər standartlar tələbindədir. Prezident İlham Əliyevin dediyi kimi, biz artıq Azərbaycan standartlarından da danışa bilərik:"Çünki indi dünya səviyyəsində müxtəlif elmi mərkəzlər var və bizim mərkəzlər - son illər ərzində təmir edilmiş, yaxud da ki, yeni tikilmiş mərkəzlər bütün cəhətlərdən ən yüksək səviyyədədir: həm keyfiyyət, həm rahatlıq, palataların ölçüləri, xəstələrə, həkimlərə yaradılmış şərait və əlbəttə ki, avadanlıq." Mərkəzlərdə quraşdırılmış avadanlıqlar ən son texnologiyadır. Texnoloji tərəqqi sürətlə irəlilədiyindən, daim bunu diqqətdə saxlamaq vacib şərtlərdəndir. Sözsüz ki, buna Azərbaycanın iqtisadi tərəqqisi təkan verir.

İnsanların sağlamlığı dövlətin birinci dərəcəli prioritet məsələsidir. Odur ki, sağlamlığı təmin etmək üçün, ilk növbədə, səviyyəli tibbi xidmət göstərilməlidir, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramında da növbəti illərdə yeni xəstəxanaların tikintisi nəzərdə tutulur. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasəti sosialyönümlüdür. Bunun mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşları sağlam olmalıdır. Bütün bunlar ölkə Prezidentinin həyata keçirdiyi islahatlarda təbiq olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərman və sərəncamları, ölkə səhiyyəsində islahatların aparılması əldə olunan bütün nailiyyətlər səhiyyənin yeni bir mərhələdə inkişafına gətirib çıxarıb. Bu inkişafın nəticəsidir ki, bu gün dünyada elə bir cərrahi müdaxilə növü yoxdur ki, o, Azərbaycanda icra olunmasın. Dünyada laparoskopik cərrahiyyənin ən çətin əməliyyatlarından hesab olunan yemək borusu plastikası əməliyyatı Azərbaycanda icra olunur. Müasir döş qəfəsi cərrahiyyəsində, demək olar ki, hər əməliyyatın torakoskopik yolla icrası mümkündür. Açıq ürək əməliyyatının uğurla həyata keçirilməsi və s. bugünkü səhiyyəmizin nailiyyətləri sırasındadır.

Bütün bunlar Azərbaycan səhiyyəsinin müasir dövrümüzdə bütün xüsusiyyətlərinə görə, özünün yeni inkişaf mərhələsini yaşamasının, ölkəmizin iqtisadi gücünün və siyasi sabitliyin təzahürüdür.

***N.ƏLƏDDİNQIZI***

# Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının iclası keçirilib

## *"Hürriyyət" qəzetinə və digər media qurumlarına xəbərdarlıq edilib*

***Azərbaycan Mətbuat Şurasının Şikayətlər üzrə Komissiyasının növbəti iclası keçirilib. Toplantını açan MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli gündəlikdə duran məsələlər barədə məlumat verib. Gündəlik səsə qoyularaq qəbul edilib.***




İclasda müzakirə edilən ilk məsələ Azərbaycan Respublikasının Milli Məclisinin bir qrup deputatının "Hürriyyət" qəzetinə qarşı şikayəti olub. Bildirilib ki, cavabdeh tərəf satirik təqdimatın yol verilən hədlərini aşıb. Bu isə haqlı narazılıq yaradıb. Hər bir kütləvi informasiya vasitəsi mövcud səpkili material təqdim edərkən diqqətli olmalı, onun ictimai rəydə doğuracağı reaksiyanı mütləq şəkildə hesablamalıdır. "Hürriyyət" qəzetinin isə bu məqama diqqətsiz yanaşdığını, müvafiq olaraq, peşə prinsiplərini pozduğunu söyləmək üçün əsaslar var. Buna görə də, komissiya qəzetə xəbərdarlıq edilməsi barədə rəyə gəlib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərovun "Rubrika.az", "Cumhuriyyet.az" və "Qlobal.az" saytlarına qarşı şikayəti ilə bağlı bildirilib ki, "Rubrika.az" saytında ADPU ilə bağlı yayımlanmış, "Cumhuriyyet.az" və "Qlobal.az" saytlarında, faktiki olaraq, təkrarlanmış materialda qarşı tərəfin mövqeyi öyrənilməyib, yanlış rəy yaradılıb. Buna görə də, "Rubrika.az" saytına xəbərdarlıq edilib, "Cumhuriyyet.az" və "Qlobal.az" saytlarına isə istinad materialını təqdim edərkən diqqətli yanaşmaq, gələcəkdə belə yanlışlıqlara yol verməmək tövsiyə olunub.

İclasda müzakirə edilən növbəti məsələ Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyinin Dövlət Baytarlıq Nəzarəti Xidmətinin "Qanunxeber.az" saytına qarşı şikayəti olub. Şikayətçi tərəfin təmsilçisinin iştirak etdiyi toplantıda bildirilib ki, komissiya üzvlərinin cavabdeh kimi göstərilən saytla ilkin müzakirə cəhdləri uğursuz alınıb. Belə ki, "Qanunxeber.az"da göstərilən telefon nömrələri fəaliyyətdə deyil, doğru ünvan da yoxdur. Bu isə kütləvi informasiya vasitəsi kimi nəzərdə tutulan qanuni fəaliyyətlə uyğunsuzluq təşkil edir. Məsələnin hüquqi müstəvidə mübahisələndirilməsi üçün əsaslar da var. Komissiya bütün bunları nəzərə alaraq, "Qanunxeber.az" saytı ilə bağlı materialların şuranın "Reket Jurnalistika"ya Qarşı Mübarizə Komissiyasında araşdırılmasına dair rəyə gəlib.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının direktoru Mətanət Fərzəliyevanın "obyektiv.org", "azertaym.az", "cumhuriyyet.az" saytlarına qarşı şikayətinin müzakirəsində bildirilib ki, cavabdeh tərəflərin dəqiqləşdirilməmiş bilgiləri qabartdıqları üçün yanlışlıqlarını etiraf etmələri vacib şərtdir. Komissiya bunu əsas götürüb, eyni zamanda, sözügedən saytlara gələcəkdə belə hallara yol verməməyi tövsiyə edib.

"Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri Kəmalə Ağazadənin "Ulu zirvə", Sumqayıt şəhər sakini Cümşüdov Mahir Fehruz oğlunun "Dərələyəz" qəzetlərinə qarşı şikayətləri müzakirə edilərkən müraciət müəlliflərinin iddialarında doğru olmadıqlarına dair rəy çıxarılıb.

***RÖVŞƏN***

# BSU-da Beynəlxalq Müəllimlər Günü qeyd olunub

***Dünən Bakı Slavyan Universitetində Beynəlxalq Müəllimlər Gününə həsr olunmuş təntənəli tədbir keçirilib. Tədbirin əvvəlində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***



Mərasimi giriş sözü ilə açan BSU-nun rektoru, professor Nurlana Əliyeva universitetin müəllim heyətini əlamətdar gün münasibətilə təbrik edib.



O, Bakı Slavyan Universitetinin təhsildə qazandığı uğurların, məhz universitetdə çalışan müəllimlərin sayəsində ərsəyə gəldiyini bildirib. O, müəllimi olmayan millətin gələcəyinin omadığını vurğulayıb. BSU rektoru Azərbaycanın dövlət siyasətində müəllimə daim hörmət və qayğının xüsusi yer tutduğunu nəzərə çatdırıb. O, Ümummilli Lider Heydər Əliyevin "Mən həyatda qazandığım bütün uğurlara görə, müəllimlərimə borcluyam!" fikrini xatırladıb. N.Əliyeva çıxışının sonunda ölkəmizin parlaq gələcəyi üçün sağlam düşüncəli gənclərin yetişməsində əvəzsiz xidməti olan müəllimlərə bir daha minnətdarlığını bildirib.

Sonra Respublika Veteranlar Təşkilatının üzvü Hacı Tofiq Seyidzadə çıxış edərək, BSU-nun professor-müəllim heyətini Beynəlxalq Müəllimlər Günü münasibətilə təbrik edib və müəllimlərə həsr etdiyi şeirini səsləndirib. Vaxtilə tələbəsi olduğu M.F.Axundov adına Rus Dili və Ədəbiyyatı İnstitutunun müəllimlərinə onun üzərində çəkdikləri zəhmətlərinə görə minnətdarlığını bildirib.

Tədbir konsert proqramı ilə davam edib. Universitetin "Arzu" Rəqs Ansamblının hazırladığı rəqslər nümayiş olunub, tələbələrin ifasında şeir və mahnılar səsləndirilib. Sonda BSU-nun foyesində universitetin Gənc Rəssamlar Klubu tərəfindən müəllimlərə həsr olunmuş əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

***NƏZAKƏT***

**Yaxşı deyiblər ki, siyasətdə vicdanlılıq gücə, riyakarlıq isə zəifliyə dəlalət edir. Ermənistan prezidenti Serj Sarkisyan kimi. Belə ki, Ermənistan prezidenti özünü konstruktiv və tolerant düşüncə sahibi kimi göstərməyə çalışsa da, praktiki olaraq, buna nail ola bilmir. Bunu S.Sarkisyanın məntiqsiz və əsassız informasiyalarında açıq-aydın görmək olur. Məhz işğalçı ölkənin prezidenti S.Sarkisyan öz uğursuz addımlarına haqq qazandırmaq üçün Azərbaycana qarşı şər-böhtan atmaqda davam edir. Bu isə, erməni liderinin reallığı duymaq, görmək və uyğun nəticələr çıxarmaq qabiliyyətinin xeyli zəif olduğunu təsdiqləyir.**

# YALAN VƏ FIRILDAQLAR ÜZƏRİNDƏ QURULAN “SİYASƏT”



## *İşğalçı Serj Sarkisyan terrorçu kimi düşünməkdə davam edir*





Bunu siyasi ekspertlər də təsdiqləyərək bildirirlər ki, Sarkisyanın “siyasəti” yalan və fırıldaqlar üzərində qurulub. Bu, düşmən ölkənin mətbuatının yaydığı məlumatlardan da açıq-aydın görünür. Ancaq işğalçı dövlətin prezidenti Sarkisyan anlamır ki, Azərbaycan dövlətinin yeritdiyi siyasət də, dövlət başçımızın siyasi fəaliyyəti də hamı tərəfindən dəstəklənir. Məhz bu uğurlu siyasətin nəticəsidir ki, Siahlı Qüvvələrimizin Ali Baş Komandanının ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində nümayiş etdirdiyi qətiyyət, Milli Ordumuzun işğalçı dövlətin təxribatlarına tutarlı cavab verərək, düşmənin geri çəkilməsinə nail olması və bu kimi bir sıra başqa amillər həm ölkə əhalisi, həm də dünya ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanır. Çünki Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun, ümumiyyətlə, uzun illərdən bəri artmaqda olan inkişafın reallığı və nəticəsi - qələbə, hər bir qələbənin arxasında Azərbaycanın tərəqqisi. Bir də belə güclü ordu və belə güclü Ali Baş Komandan ilə heç şübhə yoxdur ki, yaxın vaxtlarda Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək.








## Sarkisyanın siyasi dilemması: yalan və diplomatiya

Bu da həqiqətdir ki, hər hansı bir siyasətçi uduzduqda belə təmkinini saxlamalı, siyasi etiketi gözləməlidir. Sarkisyanın isə çıxışlarına və müsahibələrinə diqqət yetirsək, onun “təsadüfi dövlət başçısı” olduğunun şahidi oluruq. Buna misal olaraq, Sarkisyanın BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında qurumun Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışında bütün idiotizm, sərsəmlik və siyasi avantüra hədlərini aşaraq, dünyaya yeni siyasi təlxəklik nümunəsi göstərməsi oldu. O, sessiyada bütünlüklə Azərbaycana qarşı hədyanlar, yalanlar və böhtanlar deməklə, siyasi əxlaq və mənəfiyyata malik olmadığını bir daha göstərdi. Sarkisyandan bundan savayı başqa bir çıxış da gözləmək mümkün deyildi. Çünki Sarkisyanda primitiv düşüncəli terrorçuların BMT tribunasından danışmaq ənənəsi hələ də qalır. Azərbaycanın haqq səsini bütün dünya qəbul etdiyi üçün yalan danışmağa məcbur olan Sarkisyanın BMT-nin Baş Assambleyasında 15 dəqiqəlik çıxışının bütünlüklə ölkəmizə “həsr” olunması bəlkə də təəccüblü sayılmamalıdır. Çünki artıq erməni xalqı da anlayır ki, Dağlıq Qarabağ Azərbaycana məxsusdur. Bir də, onu da anlayır ki, Azərbaycanın güclü Lideri və sarsılmaz ordusu var. Çünki güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Ali Baş Komandan və ölkə Prezidentinin bildirdiyi kimi: “Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq”.

Erməni hərbi eksperti David Simonyan da S.Sarkisyanın yeritdiyi xarici siyasətin ölkəni nə dərəcədə ağır vəziyyətə saldığını etiraf edir: “Nə qədər gizlətsələr də, aprel döyüşləri zamanı böyük itki verən və ən əsası, Azərbaycan əsgərinin yüksək döyüş hazırlığı ilə qarşılaşan Ermənistan rəhbərliyi, bir neçə ildir ki, öz xalqına danışdığı “güclü erməni ordusu” nağılından da məhrum oldu. Normal məntiqlə, belə uğursuzluqlarla üzləşən S.Sarkisyan danışmalı idi.

David Simonyan onu da bildirir ki, Ermənistan prezidenti Azərbaycan şəhər və kəndlərinin çiçəkləndiyini etiraf edir və bunun paxıllığını çəkir: “Çünki öz ölkəsində bu cür inkişaf getmədiyindən, “yaxşı və mədəni nə varsa, məhv etməli” kimi ənənəvi erməni xisləti özünü göstərir. İkincisi, Ağdamı xatırlamaqla o özünün terrorçu keçmişini yada salır”.

## Asim Mollazadə: “Sarkisyanın, əslində, belə bir işğalçı bəyanatı Ermənistan dövlətinin strategiyasıdır”

Millət vəkili Asim Mollazadə təcavüzkar Ermənistan prezidentinin torpaq iddiası ilə bağlı bəyanatlarını onun düşüncə tərzində çatışmazlığın olması ilə əlaqələndirib: “Xocalı soyqırımında iştirak etmiş Sarkisyan kimi bir cani bu gün “prezident”lik kürsüsündə əyləşir. Təbii ki, belə bir cinayətkar və cani dövlət başçısından hər şey gözləmək olar. Ancaq Sarkisyan bilməlidir ki, ötən zaman Ermənistanın əleyhinə işləyir. Neçə minlərlə erməni əhalisi ölkəni tərk edir, xarici dövlətlərə üz tutur. Əgər bu gün işğalçı ölkəyə havadarlıq edən qüvvələr olmasaydı, Ermənistan, ümumiyyətlə, bir dövlət kimi yer üzündən silinərdi. Həmin qüvvələrin də Ermənistanı hansı səbəbdən dəstəklədiyi və ona havadarlıq etməsi məlum məsələdir. Əgər bu gün işğalçı ölkəyə işğalçılıq əməllərinə görə cəza tətbiq edilməsə, Ermənistan digər əraziləri də zəbt etmək iddiası ilə çıxış edəcək. Ona görə də, işğalçı Ermənistan bütün törətdiyi əməllərinə görə mütləq cəzalandırılmalıdır”.

Millət vəkilinin də bildirdiyi kimi, təcavüzkar Ermənistan bütün sərhəd boyu Azərbaycana qarşı işğalçılıq siyasətini və pozuculuq aktlarını həyata keçirməklə davam etdirir: “Cəbhə xəttində tez-tez atəşkəs rejimi ermənilər tərəfindən pozulur və bunun da nəticəsində Azərbaycanın mülki əhalisi, azyaşlı körpələri erməni snayperinə tuş gəlir. Faşizm ideologiyasının ən bariz nümunəsi Ermənistandır. Körpə bəşər övladlarını terrorla qətlə yetirmək yalnız Ermənistan kimi cinayətkarlarla dolu bir ölkəyə yaraşar. Gec-tez bütün əməllərinə görə Ermənistan öz layiqli cavabını alacaq”.

## Arye Qut: “Ermənistanın siyasi səhnəsində təsadüfi adam olan Serj Sarkisyan terrorçu kimi düşünməkdə davam edir”

İsrailli ekspert Arye Qut da S.Sarkisyanın psixoloji durumundakı bu özəlliyi belə qiymətləndirir: “...Bəli, təəssüf ki, işğalçı Ermənistan qoşunları Ağdam şəhərini yerlə yeksan ediblər... Mən başa düşə bilmirəm, Ermənistan prezidenti bu terror və işğal faktları ilə necə fəxr edir. Təəssüf ki, ikinci dəfə Ermənistan prezidenti seçilməsinə baxmayaraq, Sarkisyan yenə terrorçu kimi düşünməkdə davam edir. Bütün bu faktlar Ermənistanın Azərbaycanla sülh şəraitində yaşamağa hazır olmadığını bir daha sübut edir və məhz bu səbəbdən də 20 ildən artıq davam edən danışıqlarda heç bir nəticə və real irəliləyiş yoxdur. Ermənistanın siyasi səhnəsində təsadüfi adam olan Serj Sarkisyan terrorçu kimi düşünməkdə davam edir”.

Göründüyü kimi, səviyyəsiz və siyasətdən bixəbər olan Sarkisyan kimi fərdlərdən nə gözləmək olar? Ancaq Ermənistan rəhbəri onu daha yaxşı anlayır ki, yaxın zamanlarda bu problem öz həllini tapacaq və bu səbəbdən də, işğal faktını deyil, onu aradan qaldırmağa istiqamətlənmiş addımları mənfi aspektdə təqdim etməyə çalışır. Ancaq Sarkisyan onu da bilməlidir ki, dünya ictimaiyyətini bu cür bəsit tezislərlə çaşdırmaq mümkün deyil.

**A.SƏMƏDOVA**

# "Milli Şura"nın mitinqləri paxırları üzə çıxarır

*Cəmiyyət belə xainlərə inanmır*



**Adı müxalifətin olan, əslində isə, erməni-pərəst dairələrin sifarişi əsasında yaradılmış "Milli Şura"nın antimilli maraqlara xidmət etməsi, bəlli olsa da, yenə də həyasızlığından əl çəkmir.**

**Bu oyuncaq qurumun yaradılmasında əsas məqsəd heç də, özlərinin dedikləri kimi, demokratik seçkilərin keçirilməsi deyilmiş.**

Bunu müxalifət nümayəndələri də təsdiqləyirlər ki, bu qondarma qurum qaranlıq məqsədlərə xidmət etmək üçün yaradılıb. Elə ötən həftə uğursuz mitinqdən sonra, yenidən növbəti mitinq keçirmək istəmələri də, bunu bir daha sübut edir. Bu, o qurumdur ki, seçkilərin keçirilməsinə 7-8 ay vaxt qalmasına baxmayaraq, müxaliflər seçkinin qeyri-demokratik keçiriləcəyi haqqında əsassız uydurmalar yaydılar və bu gün də bu çirkin niyyətlərindən əl çəkmirlər.

## Aydın Mirzəzadə: "Radikal müxalifət növbəti dəfə gücsüzlüyünü nümayiş etdirəcək"

YAP-ın Siyasi Təhlil və Proqnozlaşdırma şöbəsinin müdiri, millət vəkili Aydın Mirzəzadə "Milli Şura"nın mitinqinə münasibət bildərərək deyib ki, "Milli Şura"nın bu cür mitinq keçirməsi Azərbaycanda demokratiyanın olmasının göstəricisidir: "Bir məsələ də var ki, belə tədbirlərdə hər dəfə daha az nümayişçi iştirak edir. İsrarla özünün gücsüzlüyünü, elektorat bazasının olmadığını nə üçün sübut etmək istəyirlərsə, bu, mənə aydın deyil. Yenə də bir neçə yüz adam gələcək və ümumi şüarlar olacaq. Bununla da, əvvəlki seçkilərdə olduğu kimi, qarşıdakı prezident seçkiləri öncəsi radikal müxalifət növbəti dəfə öz gücsüzlüyünü nümayiş etdirəcək".

## Adil Qeybulla: ""Milli Şura" xarici ölkələrdəki anti-Azərbaycan dairələrin ideyası əsasında yaradılan xəyanətkar qurumdur"

"Milli Şura"nın mitinq qərarına ciddi narazılıq edən Müsavat divanının sabiq üzvü Adil Qeybulla bildirib ki, "Milli Şura"nın əsas məqsədi yalan vədlər verdikləri insanların başını müxtəlif bəhanələrlə qatıb vaxt qazanmaqdır: "Bu gün müxalifət adından danışanlar, məni söz deməyə məcbur ediblər. Müxalifətçilər var ki, 2 cüt bir tək düşüblər ortaya ki, müxalifətik. Mitinq keçirməkdə məqsədi olmayanların "mən də varam" istəyi onları beynəlxalq təşkilatların qara qullarına çevirib. "Milli Şura"nın mitinq keçirməkdə məqsədi nədir? Kimə etiraz edirlər? Mitinq seçkidən sonra keçiriləndə, deyirlər ki, seçkilər saxtalaşdırılıb və xalqı ayağa qalxmağa çağırırıq. İndiki situasiyada niyə mitinq keçirilir? Bu, nəyi göstərir? Kimə və nəyə etiraz edilir? Çünki "Milli Şura"nın strategiyası yoxdur. Mitinqin keçirilməsi qərarı bunu bir daha sübut edir. Hadisələrin gedişi, onu göstərir ki, "Milli Şura"da və ona yaxın olanlar arasında hakmiyyət ehtirası ilə yanan qüvvələr də var".

## Sərdar Cəlaloğlu: ""Milli Şura"nın mitinqi fürsətcillikdir"

Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu isə "Milli Şura"nın seçki ərəfəsi keçirmək istədiyi mitinqə münasibət bildirərək, indiki halda bu aksiyanı fürsətcillik kimi qiymətləndirib: "Biz görürük ki, 24 ildir Azərbaycandakı vəziyyəti pisləyən beynəlxalq təşkilatlar demokratiyaya heç bir ciddi dəstək verməyib, yalnız mövqe bildiriblər. Bu da, onu göstərir ki, məqsəd heç də demokratiyanı müdafiə etmək deyil, demokratiya adı altında öz maraqlarını təmin etməkdir. İndiki halda, "Milli Şura"nın keçirdiyi aksiyalar, məhz həmin anti-Azərbaycan qüvvələrinə sərf edəcək". S. Cəlaloğlu "Milli Şura"nın həmişə siyasi maraqlarını ortaya qoyduğunu bildirib: "Bu gün kifayət qədər anti-Azərbaycan mövqeyində olan dairələr var ki, ölkədəki nöqsanları qabartmaqda məqsədi heç də demokratik dəyərlər deyil. Onlar, sadəcə, ölkənin imicinə zərbə vurmaq niyyətindədirlər".

Göründüyü kimi, düşərgə liderləri özləri də radikal müxalifətin mitinq "eyforifası"na inanmırlar. Ona görə də, mitinq-filan keçirməsələr, daha yaxşı olardı. Çünki bunlar mitinq keçirdikcə, paxırları daha da üzə çıxır və tezliklə ifşa olunurlar. Cəmiyyət isə belə zadları görüb çirkənir və iyrənir.

**Rəfiqə HÜSEYNOVA**

---

**TƏRS BAXIŞ**

**Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlunun son vaxtlar Nobel mükafatına hərisliklə iddialı olması istədiyi nəticəni vermir. Bu günə qədər özünü müxtəlif sahələrdə - "dini", "fəlsəfi", "tarix", "tibb", yaxud da başqa sahələrdə "sınayan" siyasətçi nəticə etibarilə kənarda qalır. Ümumiyyətlə, S.Cəlaloğlunun nə istədiyini heç özü də bilmir. Ancaq buna baxmayaraq, hələ də özünün Nobel mükafatına "layiq" olduğunu iddia edən ADP sədri siyasət sahəsində uğur qazana bilməməsi səbəblərini öz "fəlsəfi" fikirləri ilə sübuta yetirməyə səy göstərmir. Görünür, özünə qəti yol seçə bilməyən Cəlaloğlu "od" ilə "su" arasında bundan sonra da var-gəl etməkdə davam edəcək.**



# Sərdar Cəlaloğlunun "elmi işləri" yararsız çıxır

*Yaxud ADP sədri "nəzəriyyələrini" sübut edə bilmir və elmə "qurban" verdiyi pullarını geri istəyir*

## Maraqlıdır, sən "nəzəriyyə" hazırlayasan və onu eksperimental tərzdə sübut edə bilməyəsən...

"Mən bu dəfə də Nobel Komitəsinə elmi iş təqdim etmişdim. Açığını deyim ki, bu dəfə mənim işimin hansı dərəcəyə qədər qalxması haqqında məlumatım yoxdur"-deyə açıqlama verən ADP sədri, hətta göndərdiyi "elmi işlərin" müqəddəratından da xəbərsiz olduğunu etiraf etməklə heç özünün də nə istədiyini bilmir. Üstəlik, təqdim etdiyi "nəzəriyyəsini" eksperimental tərzdə sübut etmək imkanına malik olmadığını da bildirir. Maraqlıdır, sən "nəzəriyyə" hazırlayasan və onu eksperimental qaydada sübut edə bilməyəsən, hər halda, anlaşılmayan iddiadır...

Düzdür, S.Cəlaloğlu fikirlərini laboratoriyasının olmaması ilə əlaqələndirir, ancaq bu da çıxış yolu hesab oluna bilməz. Ən azından, o öz "nəzəriyyəsini" hazırlayarkən, hər hansı laborator vasitədən istifadə edib və sübut etmək istəyən, özünə güvənən elə laboratoriyasız da istədiyi məsələni sübut edə bilər.

ADP sədri, hətta milyonçu dostunun olduğunu və ona pul vermədiyini də "əsas" gətirərək, özünü dünyanın ən məzlum elm adamı kimi sərgiləyib: "Hətta bir milyonçu dostum var, xahiş etdim ki, mənə 2-3 min manat köməklik etsin. Ancaq sponsurluq etmədi. Təsəvvür edin ki, milyonerdir, amma dedi ki, pulum yoxdur...Mən Nobel Komitəsinə təqdim etdiyim iki işimin gedib ora çatmasına, tərcüməsinə, texniki məsələlərə təxminən 8 min manat pul xərcləmişəm".

Müsahibimiz qeyd edib ki, bu il Nobel Komitəsinə iş təqdim etməyi planlaşdırmır:

"Bu məsələnin həm də maliyyə tərəfi var. Üstəlik, təqdim edilən işin təcrübədə tətbiqini də həyata keçirmək lazım gəlir. Buna isə imkan və şərait yoxdur".

Beləliklə, "hərtərəfli" adam olan S.Cəlaloğlu çox yəqin ki, yaxın vaxtlarda Nobel Komitəsini onun heç kimə lazım olmayan, lüzumsuz və elmi əsaslara söykənməyən "işlərini" qaytarıb "başına vurması" məsələsinə görə həmin qurumu məhkəməyə verəcək. Ancaq çətin ki, o, bu işi udsun, çünki onun keçmişini araşdıran elm adamları ona uğursuz siyasəti ilə məşğul olmağı tövsiyə edəcəklər. Elmə "qurban" verdiyi pulları isə geri qayıtmayacaq...

**Rövşən RƏSULOV**

**P.S. İndi ADP-də onun əlinə baxanlar yapışacaq Sərdar Cəlaloğlunun yaxasından və deyəcəklər ki, həmin pulları nəyə görə partiyadaşlarının ehtiyaclarına xərcləməmisən?!**

---

# Azərbaycanda ilk təhsil ekosisteminin açılışı olacaq

"World Language Center" Azərbaycan gəncləri üçün yeni təhsil imkanları yaratmaqda davam edir. Mərkəzin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 4-də start veriləcək yeni layihəyə uyğun olaraq tələbələr xaricdə təhsil almış peşəkar müəllimlərdən xarici dilləri öyrənməklə bərabər, asudə vaxtlarında "LANGUAGE CAFE"dən də istifadə edə biləcəklər. Eyni zamanda, gənclərimizin xarici ölkələrdə təqaüdlə təhsil arzularını reallaşdıran mərkəzdə mütəmadi olaraq seminarların, təhsil sərgilərinin və təlimlərin keçirilməsi nəzərdə tutulur.




Dünyanın nüfuzlu universitetləri ilə sıx əməkdaşlıq edərək xarici mütəxəssisləri ölkəmizə gətirən "World Language Center" gənclərin xarici dilləri qısa zamanda öyrənə bilmələri üçün xarici dillərdə əsərlərdən ibarət kitabxana da yaradıb. Yaxın gələcəkdə mərkəzin nəşriyyat evi də gənclərin xidmətinə veriləcək. Azərbaycanda ilk dəfə çoxfunksiyalı bir təhsil ekosistemi olan mərkəz həm mədəniyyət, xarici dil kursları, rəsmi imtahan məkanı, həm də xaricdə təhsil mərkəzi və nəşriyyat evi kimi gənclərə xidmət göstərəcək.

---

# İspaniyalı nazir: Kataloniya müstəqillik almayacaq



İspaniyanın iqtisadiyyat naziri Luis de Gindos referendumun nəticələrinə əsasən Kataloniyanın müstəqillik qazanması imkanını istisna edib. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, nazir bunu bloomberg agentliyinin televiziya efirində çıxışı zamanı bildirib. "Muxtar regionun müstəqilliyi Kataloniya əhalisinə yalnız zərər vura bilər", - deyə o qeyd edib. Gindos, eyni zamanda, hesab edir ki, Madridlə Barselona arasında danışıqların mümkünlüyü nəinki İspaniya, həm də, bütün Avropa üçün təhlükəli presedent yarada bilər. İspaniyanın iqtisadi qurumunun başçısı, həmçinin Kataloniyanın regional hökumətinin yüksək səviyyəli özünüidarəyə sahib olduğunu xatırladıb.

Qeyd edək ki, oktyabrın 1-də Kataloniyada müstəqillik barədə referendum keçirilib. Səsvermə çox sayda insanın xəsarət alması ilə nəticələnən kütləvi ixtisaslarla müşayiət olunub. İspaniyanın Konstitusiya Məhkəməsi səsvermənin ölkənin əsas qanununa zidd olduğuna dair qərar çıxarıb. Bir qədər əvvəl Kataloniya hökumətinin başçısı səsvermənin nəticələrini parlamentin müzakirəsinə çıxaracağını vəd edib.

# Azərbaycan mədəniyyəti və kommunikasiyanın qarşılıqlı münasibətləri

Azərbaycan mədəni fenomeni, dəyər anlamı nöqteyi-nəzərdən mürəkkəb struktura malikdir. Buraya aşağıdakılar daxildir:

- azərbaycanlıların düşüncə və fikirləri;
- onların maddi və mənəvi fəaliyyəti;
- milli-mənəvi dəyərlər kompleksi.

Sevda Əhədova haqlı olaraq yazır: "Bəşəriyyətin tarixi ərzində müxtəlif svilizasiyalar və mədəniyyətlər etnik-dövlət hüdudlarını aşaraq, bir-biri ilə kommunikativ əlaqəyə girmişlər. Hər mədəni, tipin özünəməxsus tarixi mənşəyi, nailiyyətləri, üstünlükləri və çatışmazlıqları vardır. Tarix, onu da sübut edir ki, müxtəlif mədəniyyətlər arasında mübadilə və təmaslarla yanaşı, münaqişələrə gətirib çıxaran ziddiyyətlər və qarşıdurmalar da mövcud olmuşdur. Qədim dövrlərdən indiyə qədər müxtəlif xalqlar və millətlər arasındakı qarşılıqlı nifrət, düşmənçilik və münaqişələr təkcə bu xalqlara saysız-hesabsız zərər və iztirablar gətirməmiş, həm də bütün dünyada inkişafa və sabitliyə mənfi təsir göstərmişdir. Bəşəriyyət bunu unutmamalıdır. Eqosentrik yanaşma, milli separatizm və milli müstəsnalığa sövq edən hərəkətlər tarixin gedişinə zidd olmaqla bərabər, həm də bəşəri barışa və tərəqqiyə qarşı yönəlmiş hərəkətlərdir".

Azərbaycan mədəniyyətində simvolların da mühüm yeri vardır. Milli simvollar azərbaycanlıların ideya və ideallarının yüksək dəyərlər şəklində təzahürüdür. Azərbaycan mədəniyyəti sosial mövcudluq formasına görə də fərqlənir. "Bu, o deməkdir ki, mədəniyyətin subyektləri ayrılıqda götürülmüş bir insan deyil, müəyyən tarixi və ictimai, ümumilikdə birləşmiş fərdlərdən ibarət birlikdədir. Mədəniyyətin əsas törədicisi, onun yaradıcısı və subyekt sosial əlaqə və münasibətlər toplusu ilə birgə götürülmüş ictimai varlıq olan insandır. Bu mənada, mədəniyyət sosial gerçəklikdir.

Mədəniyyətin fərqləndirici xüsusiyyəti sosial insanın (bəşəriyyəti) insan-əşyavi fəaliyyət prosesin özünü və nəticəsini əks etdirir. Ona görə də, insanı əhatə edən gerçəklik təbiətin məhsulu olmaqdan çox mədəni fəaliyyətin məhsulu olması faktı səciyyələndirilir. Nümunə üçün göstərilməlidir ki, gündəlik istifadə edilən meyvə-tərəvəz və məişət əşyaları təbiət məhsulları kimi təqdim edilməzdən öncə sosial-mədəni fəaliyyətin nəticəsi kimi izah olunmalıdır, çünki onlar məhz ictimai münasibətlər əsasında əkilmiş becərilmiş, toplanmış və alınmışdır.

Beləliklə, mədəniyyəti insanın həyat fəaliyyətinin inteqrativ obrazı, ətraf aləmin, gerçəkliyin yenidən qurulması, dəyişdirilməsinə yönəldilmiş ictimai-tarixi təcrübənin nəticəsi kimi də qeyd etmək olar. Fəaliyyət-mədəniyyətin dinamik aspekti, onun "subyektiv substansionallığı" (Hegel), həm də mədəniyyət insanın sosial gerçəkliyinin əşyavi təzahürüdür.

Nəhayət, mədəniyyətin fərqləndirici xarakteristikasına onun məğzini, qayəsini təşkil edən dəyər və faydalar aid edilir. Öz mühakimələrində M.M.Baxtin insan gerçəkliyini "qeyri-gerçəklik, məqsəd və fayda kateqoriyaları" ölçülərində izah etmişdir. Əslində, məhz dəyər və fayda kateqoriyaları mədəniyyət fenomeninin yaradılması üçün insani gerçəkliyin daxili mahiyyətinin əsasını təşkil edir.

Mədəniyyətin xarakteristikasının digər fərqləndirici xüsusiyyəti onun işarəliyidir, daha doğrusu, dəyər məna strukturlarının dil ilə bağlılığıdır.

Mədəniyyətdə işarə-dil vasitələrinin mahiyyət və əhəmiyyəti semiotikada daha ifadəli forma əldə edib. Y.M.Lotman və B.A.Uspenski yazır ki, bütün hallarda biz mədəniyyətin işarə mahiyyətinin müxtəlif aspektləri ilə üz-üzə gəlirik.

Mədəniyyətin dəyər-məna (fayda) məğzinin dil sahəsi ilə qırılmaz əlaqəsi fıkirlərimizin simvollar üzərində cəmləşməsinə gətirib çıxarır. Mədəniyyətin işarə-dil vasitələri içərisində simvollar xüsusi yer tutur. Özünün güc əhatəsinə görə, simvollar bütün mədəni fenomen və elementləri əhatə edir. Simvol haqqında yuxarıda qeyd etdiyimizə, əlavə olaraq bildirməliyik ki, mədəniyyət simvollarsız mümkün deyildir. Mədəniyyət sistemində simvolların mövqeyini, yerini müəyyənləşdirən alimlərindən birini insanın idraki qabiliyyətindəki xüsusi vəziyyət təşkil edir".

Azərbaycan mədəniyyəti dərin mənaları ilə fərqlənir. Onun obrazlı dərki insan idrakı vasitəsilə mümkündür.

Azərbaycan mədəniyyətində kommunikasiya elementləri aşağıdakılardan ibarətdir: davranışlar, mərasimlər, yəni adamların işdə, evdə, şənlikdə, kədərdə özlərini necə aparmaları, hansı geyimləri hansı ardıcıllıqla geyinmələri, qadın və kişi münasibətlərindəki oyun elementlərində müxtəlif informasiyalar ötürülür. Azərbaycan mədəniyyəti həm bu informasiyaları ötürməyə vasitələr verir, həm də bu informasiyaları saxlamaq üçün yollar tapır.

Azərbaycan mədəniyyətində müxtəlif mənaları bildirən mənəvi-maddi amillər aşağıdakılardır:

- dini mərasimlər;
- geyimlər;
- sosial-davranış tipləri.

Azərbaycan mədəniyyətində miflər, arxetiplər, dil, və din də ayrılmaz tərkib hissəsi kimi çıxış edi.

Müasir dövrdə semiotika mədəniyyətinin işarələr sistemlərini öyrənən elm şöhrət qazanıb.

Y.Lotman, R.Yakobson, V.Şaklovski, V.İvanov kimi görkəmli alimlər mədəniyyəti bu metodun anlayışlar sistemində modelləşdiriblər. Mədəniyyətin semiotikasını öyrənməklə 60-cı illərdən Tartu Məktəbi də ad qazanıb.

Semiotika model kimi dil sistemini əsas götürür. Dil başqalarına soraqlar ötürmək vasitəsidir. Dildə kod və tekst var. Kodda tekst üçün istifadə edilən işarələr, onların mənaları yazılır, bir də həmin işarələri bir-birinə bağlamağın qrammatikası yazılır. Tekst isə həmin işarələri həmin qrammatika əsasında yan-yana düzüb, informasiya ötürür. Teksti anlamaq istəyən kodu bilirsə, onu anlaya bilir. Yəni kod ona açır ki, tekstdəki bu bildirici (işarə) bunu bildirir, bu işarələrin bağlanmaz forması mənalar arasında filan əlaqəni yaratmaq üçündür və s.

*Azərbaycan mədəniyyətində simvolların da mühüm yeri vardır. Milli simvollar azərbaycanlıların ideya və ideallarının yüksək dəyərlər şəklində təzahürüdür. Azərbaycan mədəniyyəti sosial mövcudluq formasına görə də fərqlənir. "Bu, o deməkdir ki, mədəniyyətin subyektləri ayrılıqda götürülmüş bir insan deyil, müəyyən tarixi və ictimai, ümumilikdə birləşmiş fərdlərdən ibarət birlikdədir. Mədəniyyətin əsas törədicisi, onun yaradıcısı və subyekt sosial əlaqə və münasibətlər toplusu ilə birgə götürülmüş ictimai varlıq olan insandır. Bu mənada, mədəniyyət sosial gerçəklikdir."*

Bütün bu deyilənlərdən dini mədəniyyətə baxanda, görürsən ki, dinin əsas ideyaları və onları bildirən simvollar, məsələn, islamda tövhid, sonuncu peyğəmbər, buddizmdə heç nə ilə təşvişlənməyən nirvanaya çatmış müqəddəs və s. (məsələn, tovhidin simvolları əlifdir, xüsusi formulalardır) dini kodun elementləridir. Mərasimlər, dindarın davranışları isə həmin koddan istifadə edir. Necə ki, danışıq dilində nitq informasiya ötürməyə xidmət edir, eləcə də, mədəniyyətdə davranış, yazı, şəhərsalma tekstləri mədəniyyətin indiki iştirakçılarına və gələcək nəsillərə informasiya ötürür.

Bu informasiya məsələsi mədəniyyətin sistemində çox önəmli bir yer tutur. Mədəniyyət, xüsusilə onun maddi dəyərləri ilk baxışda görünür ki, yalnız praktiki olaraq işlətmək üçün yaradılır. Məsələn, kimsə belə hesab edə bilər ki, stul yalnız oturmaq üçündür, stol üstündə yemək və s. üçündür. Ancaq rokoko mebelləri Fransada və sonra Avropada özəl dövrlərin, həyat tərzilə, aristokratizm nə deməkdir məsələsi ilə bağlı informasiya daşıyıcısı idi. Eləcə də, süfrə özü tekstdir və hansı yeməklərin hansı bəzəkdə, hansı ardıcıllıqla gəlməsi mənalarını bildirir. Azərbaycanın bir çox aran yerlərində, məsələn, qonağı yeməyə dəvət etdikdə, süfrəyə plov gəlmirsə, bu qonağa münasibətdə ev yiyəsinin bir o qədər də qonaqpərvər anladır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# İşsizlik insanı yaşlandırır?

Böyük Britaniyada yerləşən İmperial Kollecinin və Finlandiyanın Oulu Universitetinin elm adamları maraqlı məlumat əldə ediblər. Onlar bildiriblər ki, iki ildən çox işsiz qalan kişilərdə yaşlanma səbəbi kimi bilinən qısa telomerlər, digər həmcinslərinə görə fərqli olur.



Londonda aparılan tədqiqat işsiz olan qadın və kişilərin daha tez yaşlandığını göstərib. Araşdırma rəhbəri Jessica Buxton 1966-cı il təvəllüdlü Finlandiyalı kişiləri də tədqiqə edib. Araşdırmada iştirak edən 5620 insanın daha çox telomer məsələsi gündəmdə olub. Tədqiqata cəlb olunananların DNT nümunələri ilə iş keçmişləri də araşdırılıb. Əldə olunan faktlar sübut edib ki, işsizlik insanın yaşlanmasına səbəb olur. Çünki, xromosomların ucunda olan telomerlər qısa olduğundan yaşlanma olur. Daha əvvəl edilən tədqiqatlar siqaret istifadəsinin, səhv qidalanmanın və xroniki stressin telomerləri qısaltdığını göstərmişdi.

# Təbrik edirik!

**Tağızadə Nərmini 10 yaşının tamam olması münasibətilə anası Lalə, atası Ceyhun, qardaşı Zakir, babaları Nurəddin və Zakir, nənələri Cəmilə və Sücayət, xalaları Nərgiz və Vüsalə, bibiləri Bəsti, Sona və Şəbnəm ürəkdən təbrik edir, ona həyatda uzun ömür, can sağlığı, təhsilində isə uğurlar diləyir və əlçatmaz zirvələr fəth etməyi arzulayırlar. Elşad və Alpaslan da təbrikə qoşulurlar.**

*Nərmin bu şən həyatda,*
*Uca tutsun başını.*
*Çox sevsin onu sevən,*
*Öz Zakir qardaşını,*
*Adları çəkilənlər*
*Təbrik edir Nərminin*
*10 rəqəmlə rəmzləşən*
*Yubileyini - yaşını.*
*Nərminin xoş sorağı*
*Zirvələrə ucalsın.*
*Gələcək şən həyatda*
*Yüksəlməyi bacarsın.*
*Əməlilə yaratsın*
*Neçə məscid, məqbərə,*
*Onun nəsibi olsun,*
*Yüksək ali mərtəbə.*
*Əllərilə qoyulsun,*
*Gələcəyin təməli,*
*Dillərdə dastan olsun,*
*Onun hər bir əməli.*
*Daim toy-büsat olsun*
*Ailə ocağında.*
*Sevinc, şadlıq yaşansın*
*Elin hər bucağında.*



## BAŞSAĞLIĞI

Ağamalı Ağamalıyev və Yaşar Əhmədov Azərbaycan Universitetinin Həmkarlar Konfederasiyasının sədri Cabbar Mahmudova yaxını

**Bayram Məmmədovun**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***


# səs

Son səhifə 6 oktyabr


## “Azərbaycan WBC-nin 166-cı üzv ölkəsi olacaq”




Bakıda təşkil edilmiş Ümumdünya Boks Şurasının (WBC) 55-ci Konvensiyasının yekunları ilə bağlı mətbuat konfransı keçirilib. SİA-nın məlumatına görə, konfransda WBC-nin prezidenti Maurisio Süleyman, qurumun vitse-prezidentləri və Gənclər və İdman Nazirliyinin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədova iştirak edib. M.Süleyman Azərbaycanda qonaqpərvərliklə qarşılandıqlarını, Konvensiyanın yüksək səviyyədə təşkil edildiyini bildirib. WBC-nin rəhbəri ölkə başçısı İlham Əliyevin Ümumdünya Boks Şurasının 55-ci Konvensiyasının nümayəndə heyətini qəbul etməsinin onlar üçün böyük şərəf olduğunu vurğulayıb: “Azərbaycan Prezidenti idman haqda dolğun məlumata malikdir. Ölkənizdə bir çox böyük turnirlər təşkil olunub. Dövlət başçısı sadə və geniş ürəkli insadır. Prezident İlham Əliyev gənclər və idman nazirinə tapşırdı ki, Azərbaycanda WBC çətiri altında federasiya yaradılsın. Azərbaycan WBC-nin 166-cı üzv ölkəsi olacaq. Sizə “Xoş gəlmisiniz” deyirəm. Ən geci 3 il sonra Azərbaycandan çempion çıxacağına inanıram. Federasiya yaradılmaqdadır. Gənclər və İdman Nazirliyi peşəkar boksu inkişaf etdirmək üçün öz köməyini göstərəcək”. WBC-nin rəhbərinin sözlərinə görə, Konvensiyanın Bakıda keçirilməsi üçün onlar Vitali Kliçkonun vasitəçiliyi ilə Azərbaycan Prezidentinə, eləcə də gənclər və idman nazirinə müraciət ediblər: “Azərbaycan 26 ildir ki, müstəqildir və ölkənizin idmanda böyük nailiyyətləri var. Təklif etdik ki, WBC-nin Konvensiyası Bakıda olsun. İlk gəlişimizdə böyük qonaqpərvərliklə qarşılandıq. Azərbaycana təşəkkür edirəm. Gözləmədiyimiz qonaqpərvərlik gördük”. O qeyd edib ki, Dünya Boks Şurasının (WBC) təşkil etdiyi döyüşlərdən biri Bakıda keçiriləcək: “Konvensiyanın Bakıda təşkil olunması və Azərbaycanın quruma üzv olması bir başlanğıcdır. Yaxın gələcəkdə burada döyüşlər də təşkil etməyi düşünürük”. M.Süleyman Prezident İlham Əliyevin verdiyi dəstəyin idmançılar üçün stimul olduğunu vurğulayıb: “Dövlət başçısı İlham Əliyev Milli Olimpiya Komitəsinin Prezidentidir. Bu səbəbdən də idmana yaxındır. Onun verdiyi dəstək idmançılar üçün stimuldur. Dövlət başçısından aldığımız mesaj çox xoş idi. Hər birimiz Azərbaycanı buranın səfirləri kimi tərk edəcəyik. Səfər etdiyimiz ölklərdə Azərbaycanı tanıdacağıq və təbliğ edəcəyik”. WBC rəhbəri Bakıda keçirilən Konvensiyada geniş müzakirələr aparıldığını və bir neçə qərarın qəbul edildiyini bildirib: “Konvensiyada hakimlər və münsiflər üçün iclaslar keçirildi. Tibb və Hüquq Komitələri bir sıra mövzuları müzakirə etdilər. Həmçinin, təhlükəsizlik məsələlərini danışdıq və 2018-ci il üçün tədbirlər planı təsdiqləndi”.

## Azərbaycanlı üzgüçü Qətərdə dünya kuboku mərhələsinin qalibi olub




Azərbaycan üzgüçüsü Maksim Şemberev Qətərin paytaxtı Dohada keçirilən üzgüçülük üzrə Dünya Kuboku mərhələsinin qalibi olub. Azərbaycan Üzgüçülük Federasiyasından AZƏRTAC-a bildirilib ki, təmsilçimiz 400 metr məsafəyə kompleks üsulla üzmə yarışında 4.06,72 dəqiqəlik nəticə göstərərək finişə birinci çatıb. Fatimə Əlkərmova isə 800 metrlik məsafəyə sərbəst üsulla üzmə yarışında beşinci olub. M.Şemberov 1500 metr məsafəyə sərbəst üsulla üzmə yarışında da mübarizə aparacaq.




## “Çelsi”nin futbolçusu: “Hazar məndən komandada qalmağımı istədi”

“Çelsi”nin futbolçusu Mişi Batşuayi ötən yay klubda həmyerlisi Eden Hazarın məsləhəti ilə qaldığını etiraf edib. SİA-nın məlumatına görə, belçikalı hücumçu bunları deyib: “O, mənə dostcasına məsləhət verdi. Məndən komandada qalmağımı istədi. “Çelsi”nin 2 hücumçu transfer edəcəyini gözləyirdim. Amma təkcə Morata gəldi. Onunla yaxşı münasibətim var. Lakin mən də uğur qazanmaq istəyirəm. Qışda başqa yerə getmək istəmirəm. Bu mövsüm çox oyunumuz var. Özümü ən yaxşı tərəfdən göstərmək imkanım olacaq”.

## UEFA “Spartak”a qarşı intizam işi açıb



UEFA Rusiyanın “Spartak” klubuna qarşı intizam işi açıb. SİA-nın məlumatına görə, Moskva təmsilçisi Çempionlar Liqasının II turu çərçivəsində “Liverpul”la ev oyunu zamanı intizam reqlamentinin 3 bəndini pozmaqda ittiham olunur. Bununla bağlı UEFA İntizam Komitəsinin oktyabrın 19-da keçiriləcək iclasında qərar çıxarılacaq. Qeyd edək ki, 1:1 hesabı ilə başa çatan oyunun ilk hissəsində “Spartak” azarkeşləri üzərində “UEFA - Mafiya” yazısı olan banner açmaqla bərabər, fişəng yandırıblar. Həmçinin UEFA Gənclər Liqasında bu kollektivlər arasında baş tutan görüşdə “Liverpul”un hücumçusu Bobbi Adekanye irqçi şüarlarla üzləşib.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

***Buraxılışa məsul: Mətləb Salahov***

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**

***Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**